İNKİŞAFIN

# İSLAM

MODELİ

"məqasid" konsepsiyası əsasında



Məhəmməd Ömər Şabra

Məhəmməd Ömər Şabra

# İNKİŞAFIN İSLAM MODELİ

“məqasid” konsepsiyası əsasında

Beynəlxalq İslam Fikri İnstitutu

İDRAK

BAKI – 2013

“İdrak” İctimai Birliyi
AZ1100, Bakı ş., Bakı Universiteti MTK,
M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

**Məhəmməd Ömər Şabra**
İnkişafın islam modeli (“məqasid” konsepsiyası əsasında) / Tərcüməçi və redaktor, ön söz və şərhlərin müəllifi: fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov. Bakı: CBS, 2013, 100 səh.

*Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin icazəsi ilə nəşr olunur*
***(DK-966/Q)***

© “İdrak“ İctimai Birliyi, 2013

*Mərhəmətli və Rəhmli Allahın adı ilə!*

"İslam dinində qarşıya qoyulmuş əsas məqsəd insanı xoşbəxt etməkdir" – desək, yanılmarıq. Bəli, Allah Təala bütün dinləri, o cümlədən islamı bəşəriyyətin xoşbəxtliyi üçün göndərmişdir. Amma "Həqiqi xoşbəxtlik nədir; daimi xoşbəxtliyi nə təmin edə bilər?" kimi suallar tarix boyu insan zəkasını məşğul etmiş, indi də etməkdədir. Hər şeydən əvvəl qeyd edək ki, XVIII əsrdən etibarən, ələlxüsus Maarifçilik fəlsəfəsinin ideoloji formatını mənimsəmiş Qərb (Avropa) fikrinin diktəsi ilə maddi gəlirin çoxluğu və var-dövlətin artması xoşbəxtliyin başlıca meyarı olaraq təqdim edilib. Odur ki cəmiyyətin inkişafının güzəranlıq səviyyəsinin yaxşılaşması fonunda qiymətləndirilməsi bir qayda halını alıb. Amma dünyanın inkişaf etmiş ölkələrində aparılmış rəy sorğuları göstərmişdir ki, maddi rifah, gəlirin artması, yaxşı iş imkanları... heç də xoşbəxtliyi bütövlükdə təmin edə bilmir. Xoşbəxtlik indeksinin yüksəlməsi üçün zəruri sayılan mənəvi-əxlaqi tələbatlara laqeyd münasibət Qərbdə rifah həddinin əvvəlcə sabitləşməsi, sonra isə azalması ilə nəticələnir. Deməli, həqiqi və daimi rifah üçün bir cəmiyyətdə maddi tələbatları təmin etməklə yanaşı, mənəvi-əxlaqi tərəqqiyə də diqqət yetirmək lazımdır.

Dini-aksioloji dəyərlərdən sosial və ideoloji müstəvidə imtina etmiş dünyəvi cəmiyyətlərdə, eləcə də materialist-liberal dünyagörüşündə inkişaf modellərinin başlıca göstəricisi kimi iqtisadi-texnoloji və elmi tərəqqi çıxış edir. Təbii ki, məlum sahələrin inkişafı cəmiyyətdə müəyyən dərəcədə rifahı təmin edir, amma bu rifah tam deyildir. Belə cəmiyyətlərdə insanların yalnız mad-

di-elmi tələbatları nəzərə alındığından sırf maddi tərəqqi ilə rifah yaratmaq fəlsəfəsinə əsaslanan inkişaf modelləri müəyyən vaxtdan sonra əvvəlki kimi səmərəli olmur. Müasir dövrdə maddi cəhətdən korluq çəkməyən Qərb insanının düşdüyü mənəvi boşluq və kollektiv-sosial depressiya dediklərimizin əyani sübutudur.

Dində, o cümlədən islamda isə inkişaf daha geniş məna daşıyır. Çünki din insana maddi və mənəvi tərəflərdən ibarət varlıq kimi yanaşır. Bu səbəbdən insanın xoşbəxtliyi üçün onun bütün maddi və mənəvi ehtiyaclarını təmin etmək zəruri sayılır. O da qeyd olunmalıdır ki, mənəvi tələbatları təmin etmək islam təlimlərində insan oğlunun başlıca hüquqlarından birini əmələ gətirir. Əgər biz şəriətin məqsədlərinə nəzər salsaq görəcəyik ki, islam dini bəşəriyyətin xoşbəxtliyi üçün maddi və mənəvi tələbatları vəhdətdə götürür. Əsas vəzifəsi bəşəriyyətə "fayda vermək" olan islam bu səbəbdən dini, canı, ağılı, var-dövlət və nəsli qorumağı başlıca məqsəd sayır. Bu məqsədləri həyata keçirmək imkan verəcəkdir ki, cəmiyyətdə əxlaqi, maddi və intellektual inkişaf, deməli, həqiqi inkişaf baş versin. Bir sözlə, din insanı xoşbəxt etmək üçün bütün imkanlardan istifadə edir ki, bu da onun fiziki və mənəvi tələbatlarını təmin etmək zərurətini ortaya çıxarır. İnsana fiziki və mənəvi komponentlərdən ibarət bir bütöv kimi yanaşmaq imkan verəcəkdir ki, xoşbəxtlik naminə bu komponentlərdən irəli gələn tələbatlar ayrı-ayrılıqda təmin edilsin.

Əziz oxucu! Təqdim olunan bu kitab müasir iqtisadi, sosial və fəlsəfi təlimlərin əsas tədqiqat obyekti olan inkişaf anlayışından bəhs edir. Kitabda həqiqi inkişafın mahiyyəti, şərtləri və meyarları haqda danışılır. Müəllif göstərməyə çalışır ki, inkişafa birtərəfli, deməli, naqis yanaşmanın olduğu bir vaxtda islamın təq-

dim etdiyi inkişaf modeli bu boşluğu doldura bilər. Çünki islamda inkişaf dedikdə həm maddi, həm də mənəvi-əxlaqi tərəqqi başa düşülür. Müəllifə görə, şəriətin altı məqsədindən irəli gələn vəzifələri dövlət səviyyəsində planlı şəkildə icra etmək cəmiyyətin həqiqi və davamlı inkişafını təmin edəcəkdir. İnkişafın baş verməsində əhəmiyyətli rola sahib bəzi amillərə (ədalət, azadlıq, ailədə və cəmiyyətdə həmrəylik, mənəvi-dini dəyərlər, dini dünyagörüşü... və s.) toxunan müəllif həqiqi rifahın mahiyyəti və təminini "məqasid" konsepsiyası əsasında qənaətbəxş formada izah edə bilmişdir.

Düşünürük ki, "İnkişafın islam modeli ("məqasid" konsepsiyası əsasında)" kitabı əziz oxucuların islam haqda təsəvvürlərini genişləndirəcək, bu dinin sosial tərəfini əyani şəkildə onların diqqətinə çatdıracaqdır.

**Elvüsal Məmmədov**
*AMEA akad. Z.M. Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun əməkdaşı,*
*fəlsəfə üzrə fəlsəfə doktoru, dinşünas*

# ÖN SÖZ

İslam qanunvericiliyinin (şəriətin) əsas məqsədi bəşəriyyətə şəfqət bəsləmək, onun xoşbəxtliyini təmin etməkdir. Peyğəmbər də *(Ona Allahın xeyir-duası və salamı olsun!)* məhz bu məqsədlə göndərilmişdi. Qurani-Kərimdə deyilir:

"Səni də (ya rəsulum) aləmlərə (bütün insanlara və cinlərə) ancaq bir rəhmət olaraq göndərdik" (əl-Ənbiya, 107)[1].

Bunu həyata keçirməyin başlıca yollarından biri yer üzündəki bütün insanların həqiqi xoşbəxtliyi və rifahını təmin etməkdir. Bu zaman insanlar arasında irq, rəng, yaş, cins və etnik ayrı-seçkiliyə yol vermək olmaz[2].

---

[1] Yuxarıdakı ayədə "aləmlərə rəhmət" ifadəsi işlənmişdir. Müfəssirlər bu ifadəni müxtəlif mənalarda izah etmişlər. Bir qrup müfəssir "aləmlər" sözünü geniş mənada – kainatdakı hər şey kimi nəzərdən keçirmişdir. Digər müfəssirlər isə düşünürlər ki, söhbət Yer kürəsindəki varlıq aləmindən: insanlardan, canlı və cansız təbiətdən gedir. Bax: İmam Qürtubi. əl-Came li-əhkam əl-Quran, I cild, səh. 138. Biz burada insan irqi (cins mənasında) sözündən istifadə etmişik. Düşünürük ki, ətraf mühitin mühafizəsi bəşəriyyətin xoşbəxtliyi üçün çox vacibdir.

[2] Bu anlayış islam missiyasının universallığının (cahanşümulluğunun) mühüm tərəfini əks etdirir. Quranda deyilir ki, Həzrəti Məhəmməd bir qrup insana deyil, bütün bəşəriyyətə peyğəmbər göndərilib: "(Ya rəsulum!) De: "Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm. (O Allah ki) göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir tanrı yoxdur" (əl-Əraf, 158); "(Ya rəsulum!) Biz səni (təkcə öz qövmünə deyil) bütün insanlara (möminlərə Cənnətlə) müjdə verən, (kafirləri isə Cəhənnəm əzabı ilə) qorxudan bir peyğəmbər olaraq göndərdik…" (Səba, 28).

Ərəb dilindəki rifah, ağgün, xoşbəxtlik mənasını verən "fəlah" sözü və ondan törəmiş söz-formalar Qurani-Kərimdə qırx dəfə işlədilmişdir. Həmçinin, eyni mənanı verən "fövz" sözü və törəmələri bu müqəddəs kitabda iyirmi doqquz yerdə istifadə olunub.

Namaza çağırışda – azanda inanclı insanlar gündə beş dəfə xoşgünə (xoşbəxtliyə) dəvət olunurlar. Bu da göstərir ki, islamda xoşbəxtlik mühüm məsələdir.

Bu məqamda bəzi müəlliflər qeyd edirlər ki, məqsəd təkcə müsəlman toplumlarını deyil, həm də bütün bəşəriyyəti xoşbəxt etmək olmalıdır. Bu, heç şübhə yoxdur ki, doğru yanaşmadır. Demək olar ki, bütün toplumlara görə, başlıca məqsəd bəşəriyyəti xoşbəxt etmək olmalıdır. Amma "Həqiqi rifah nədir; xoşbəxtliyin təmini və davamlılığı üçün vacib sayılan strategiyalar, modellər hansılardır?" sualları ətrafında fikir ayrılığı vardır. Qeyd edək ki, əgər bütün dinlərin istifadə edə biləcəyi doğru model həmin dinlərin sosial dünyagörüşü formaları üzərində təsirli olsaydı, bəlkə də, bu fikir ayrılıqları yaranmazdı[1]. Təəssüf ki, sözügedən formalar əsrlər boyu müxtəlif təhriflərə məruz qalmışdır. Onu da deyək XVII–XVIII əsrlərin Maarifçilik hərəkatının[2] materialist-dünyəvi formatı bütün cəmiyyətlərə bu və

---

[1] Quranda açıq şəkildə bildirilir ki: "Hər bir xalqın (doğru yol göstərən) bir rəhbəri vardır!" (ər-Rəd, 7). Həmçinin, oxuyuruq: "(Ya rəsulum!) Sənə ancaq səndən əvvəlki peyğəmbərlərə deyilənlər deyilir. Həqiqətən, sənin Rəbbin həm bağışlayandır, həm də şiddətli cəza verəndir!" (Fussilət, 43). Sonuncu ayədən məlum olur ki, dini dünyagörüşü formalarının ortaq əsasları vardır. Amma məkan və zaman fərqliliklərinə uyğun olaraq, bu əsaslarla bağlı bəzi xüsusi məsələlərdə dəyişiklik baş vermişdir.

[2] Qərbi Avropada Kilsə ideologiyasının mürtəceliyi və mühafizəkarlığına əks cərəyan olaraq meydana çıxmış, cəmiyyətin inkişafı üçün mütərəqqi ideyalarla müşayiət olunmuşdur. Əsasən Volter, Russo, Monteskyö, Herder,

ya digər şəkildə təsir göstərmişdir. Bu səbəbdən gəlirin çoxluğu və var-dövlətin artması inkişafın başlıca meyarı hesab olunmuşdur. Buna baxmayaraq, bəşəriyyətin həqiqi xoşbəxtliyini yalnız gəlir və var-dövlətin artması ilə, insanların maddi ehtiyaclarının təmini ilə ölçmək mübahisəli məsələdir. Bir çox din alimləri, əxlaq fəlsəfəsi mütəxəssisləri, bir sıra modernistlər bu problemi yenidən araşdırmışlar[1]. Onlara görə, bəşəriyyətin xoşbəxtliyi üçün maddi rifah deyil, mənəvi inkişaf daha əhəmiyyətlidir.

Empirik yanaşma da təsdiqləyir ki, bəşəriyyətin rifahı üçün maddi amilləri mənəvi amillərdən üstün tutmaq doğru deyildir. İkinci Dünya müharibəsindən sonra bəzi ölkələrdə maddi yaşayış səviyyəsinin son dərəcə yüksək olmağına baxmayaraq, həmin ölkələrin əhalisi arasında aparılmış rəy sorğusu göstərmişdir ki, rifah (xoşbəxtlik) heç də daimi deyildir, əksinə, real formada azalmağa üz tutub[2]. Bu ona görədir ki, həmin ölkələrdə (həm

---

Lessinq, Şiller, Höte, Desnitski və başqaları ilə təmsil olunan Maarifçilik, çox təəssüf ki, Kilsənin, xristian din xadimlərinin qənaətbəxş olmayan fəaliyyətini tənqid edərkən dini dəyərlərdən imtina təmayülünü formalaşdırmışdır – ***tərcüməçinin qeydi.***

[1] Hausman, Daniel and Michael McPherson (1993). Taking Ethics Seriously: Economics Moral Philosophy (in the Journal of Economic literature, June), p. 693

[2] Easterlin, Richard (2001). Income and Happiness: Towards a Unified Theory (in Economic Journal, 111:473) p. 472; Easterlin, Richard (1974). Does Growth Improve Human Lot? Some Empirical Evidence, in Paul David and Melwin Reder, eds., Nations and Households in Economic Growth: Essays in Honor of Moses Abramowitz (New York: Academic press); Easterlin, Richard (1995). Will Raising the Income of All increase the Happiness of All? (in Journal of Economic Behavior and Organization, 27:1); Oswald, Andrew (1997). Happiness and Economic Performance (in the Economic Journal, Vol. 107:445, p. 185; Blanchflower, David and Andrew Oswald (2000). Well-being over Time in Britain and USA, NBER

də mövcud baxışlarda) xoşbəxtlik dedikdə gəlirin başlıca məişət ehtiyaclarını ödəyəcək həddə çatması başa düşülür[1]. Xoşbəxtlik indeksinin yüksəlməsi üçün zəruri sayılan digər ehtiyaclar (mənəvi-ruhi ehtiyaclar – ***mütərcim***) təmin edilmədiyindən bu ölkələrdə rifah həddi sabit qalır, daha sonra azalmağa üz tutur.

Bəs digər ehtiyaclar dedikdə nə başa düşülür? Söhbət əhəmiyyətli hissəsi maddi olmayan, deməli, mənəvi ehtiyaclardan gedir. Gəlirin çoxalması, maddi vəziyyətin yaxşılaşması heç də həmişə mənəvi ehtiyacları təmin edə bilmir. Var-dövlətin əhəmiyyətinin şişirdilməsi bəzən həmin tələbatların təmininə xələl gətirir. Hər bir halda iqtisadçılar həmin tələbatları müzakirə etməməyə üstünlük verirlər. Bu, əsasən onunla izah olunur ki, mənəvi tələbatlar aksioloji (dəyər) ehkamları özündə birləşdirir və kəmiyyət baxımından "ölçülə" bilmir. Buna baxmayaraq, həmin tələbatlar çox əhəmiyyətlidir və diqqətdən kənarda qala bilməz.

Bəşəriyyətin rifahını təmin etmək üçün zəruri sayılan bu mənəvi tələbatların ən mühümlərinə psixoloji əmin-amanlıq (xatircəmlik, arxayınlıq) və xoşbəxtlik daxildir. Var-dövlətin çoxluğu bu iki tələbatın təminində kafi deyildir.

---

Working Paper7487; Diener, E., and Shigehiro Oishi (2000). Money and Happiness: Income and Subjective Well-being (in E. Diener and E. Suh. eds., Culture and Subjective Well-being (Cambridge, MA: MIT Press); Kerry, Charles (1999). "Does Growth Cause Happiness or Does Happiness Cause Growth?" in Kyklos, 52:1, pp. 3-26.

[1] Həmin başlıca ehtiyaclara qidalanma, təmiz su, geyim, abad mənzil, kommunal xidmətlər, səhiyyə sığortası, sağlamlığı mühafizə, nəqliyyat, təhsil, sağlam ekoloji mühit daxildir.

Onu da deyək ki, psixoloji əmin-amanlıq və xoşbəxtlik öz növbəsində bir neçə başqa tələbatın təminini tələb edir. Ədalət və bəşəri qardaşlıq həmin tələbatların ən mühümləridir. Ədalət və bəşəri qardaşlıq bizdən tələb edir ki, millətindən, rəngindən, yaşından, cinsindən, vətəndaşlığından asılı olmayaraq hamıya ehtiramla yanaşaq, tərəqqinin səmərəsini insanlar arasında ədalətlə bölüşdürək. Mənəvi-əxlaqi tərəqqi təkcə ədalətin deyil, həm də digər ehtiyacların təminində istinad nöqtəsi rolunu oynayır.

İnsanın xoşbəxt olmağı üçün, sadaladıqlarımızdan heç də az rol oynamayan digər tələbatlar da vardır. Buraya təhlükəsiz həyat, mülkiyyət hüququ, şərəf-şanın qorunması, fərdin azadlığı, mənəvi-maddi təhsil hüququ, evlənmək və sağlam övladlar yetişdirmək, ailə qurmaq, sosial həmrəylik, cinayətlərin, təcavüz və gərginləşmələrin məhdudlaşdırılması və sair daxildir.

Düzdür, indiki dövrdə bu tələbatların bəziləri yeni inkişaf modelində nəzərə alınır, amma onların təminində tələb olunan mənəvi “bünövrə”yə lazımi diqqət göstərilmir. Bütün bu tələbatlar lazımi şəkildə təmin olunmadıqca cəmiyyətdə uzunmüddətli inkişaf mümkün deyildir.

İslam dini inkişaf nəticəsində gəlir və var-dövlətin artmasını başlıca tələbatların təmini və ədalətli bölüşdürmədə mühüm amil hesab etsə də, bəşəriyyətin xoşbəxtliyinin islam modeli yalnız bu amillə şərtləşmir. İslam modeli həm də onu tələb edir ki, mənəvi-psixoloji tələbatlar nəzərə alınıb təmin olunsun. Bu həm həqiqi rifahın qarantıdır, həm də uzunmüddətli iqtisadi inkişafın davamlılığı üçün zəruridir.

Əgər bu ehtiyaclara lazımi diqqət göstərilməzsə, xoşbəxtliyə xələl gələr, cəmiyyət və mədəniyyət süquta uğrayar.

Mənəvi tələbatların təmini insanın başlıca hüquqlarından birini əmələ gətirir. Bu hüquqlara islam dininə dair ədəbiyyatlarda

"şəriətin məqsədləri" adı altında toxunulmuşdur. Biz bundan sonra şəriətin məqsədləri əvəzinə "məqasid" (məqsədlər) sözündən istifadə edəcəyik. Kitabımızda "məqasid"in mahiyyəti, növləri, bir-biri ilə əlaqəsi, həqiqi xoşbəxtliyin təminindəki rolu haqda danışılmışdır.

# ŞƏRİƏTİN MƏQSƏDLƏRİ

Şəriətin məqsədləri həm Quran və Sünnədə açıq-aydın göstərilmişdir, həm də bəzi alimlər onları ayə və hədislərin əsasında müəyyən etmişlər[1].

Fəqihlər həmrəydirlər ki, şəriətin əsas məqsədi bütün insanlara fayda vermək və onlardan zərəri uzaqlaşdırmaqdır[2].

---

[1] Şəriətin məqsədləri mövzusuna toxunmuş məşhur alimlər bunlardır: Mavərdi (vəfat edib – hicri 450 / miladi 1058), Şasi (vəfat edib – hicri 365 / miladi 975), Baqillani (vəfat edib – hicri 403 / miladi 1012), Cüveyni (vəfat edib – hicri 478 / miladi 1085), Qəzali (vəfat edib – hicri 505 / miladi 1111), Fəxrəddin Razi (vəfat edib – hicri 606 / miladi 1209), Amədi (vəfat edib – hicri 631 / miladi 1234), İzzəddin Abdussalam (vəfat edib – hicri 660 / miladi 1252), İbn Teymiyyə (vəfat edib – hicri 728 / miladi 1327), Şatibi (vəfat edib – hicri 790 / miladi 1388), İbn Aşur (vəfat edib – hicri 1393 / miladi 1973). Bəzi müasir müəlliflərin şəriətin məqsədləri ilə əlaqəli fikirləri üçün bax: Əhməd Rəysuni. İmam Şatibiyə görə "məqasid" nəzəriyyəsi. Ər-Riyad: "əd-Dar əl-elmiyyə lil-kutub əl-islamiyyə" nəşriyyatı, 1992; İbn Xəvəcə, Məhəmməd Həbib. Fiqhin əsasları və şəriətin məqsədləri haqda: İbn Aşurun "Şəriətin məqsədləri" kitabına dair izahlar. Qətər, Vəqflər və Din İşləri Nazirliyinin nəşrləri, 2004, II cild, səh. 79-278; Niyazi, 1994, səh. 189-268; Nurəddin Muxtar Xadimi. "Məqasid" əsaslı ictihad: arqumentliliyi, qaydaları və tətbiqi sahələri. Ər-Riyad: "Rüşd" kitabxanası, 2005; Casir Övdə. "Məqasid" fiqhi: dini hökmlər və məqsədləri. ABŞ, Beynəlxalq İslam Fikri İnstitutunun nəşrləri, 2006.

[2] Bu məsələdə alimlər həmrəydirlər. Bax: İzzəddin ibn Abdussalam. İnsanların mənafeyi haqda hökmlərin qaydaları (Qəvaid əl-əhkam fi məsalih əl-ənam). Beyrut: "Dar ən-nəşr" nəşriyyatı, tarixsiz, cild I, səh. 3-8; Məhəmməd ət-Tahir ibn Aşur. İslam şəriətinin məqsədləri // araşdırma Məhəmməd Tahir

Hicri V əsrin görkəmli müsəlman novatorlarından İmam Əbu Hamid əl-Qəzali (vəfat edib – hicri 505 / miladi 1111) "məqsəd"ləri beş başlıca kateqoriyada təsnif etmişdi. Qəzali yazırdı:

"Məxluqat üçün şəriətin məqsədləri beşdir. Bunlar onların dinini, canını, ağlını, nəslini, var-dövlətini qorumaqdır. Bu beş əsasın qorunmasını təmin edən hər bir şey fayda adlanır. Zərər isə bu beş əsasa xələl gətirən hər şeyin adıdır. Zərəri aradan qaldırmaq da fayda hesab olunur"[1].

Göründüyü kimi, Qəzali yuxarıdakı mətndə beş məqsəddən söz açmışdır. Bunlar dinin, canın, ağılın, nəsil və var-dövlətin qorunmasıdır.

İmam Qəzalidən təxminən üç əsr sonra İmam Əbu İshaq əş-Şatibi (vəfat edib – hicri 790 / miladi 1388) onun dediklərini təsdiqləmişdir. Hər bir halda, bunlar insan haqlarını gözləyib, bəşəri tələbatları təmin etməklə ən yaxşı cəmiyyətin formalaşmasına zəmanət verən bütün "məqsəd"ləri əhatə etmir. Qurani-Kərim və Pak Sünnənin söz açdığı, bəzi alimlərin də bu iki mənbəyə əsasən müəyyənləşdirdikləri başqa "məqsəd"lər də vardır. Bu səbəbdən, adı çəkilmiş beş məqsədi – əsas, barəsində bir azdan söz açacağımız digər məqsədləri isə tabe (ikinci dərəcəli, əlavə) məqsədlər hesab etmək mümkündür. Əlavə məqsədlərin həyata keçirilməsi çox vacibdir, çünki əsas məqsədləri onlarsız reallaşdırmaq çətindir. Ümumilikdə qəbul edilmiş fiqhi

---

Misavinindir. İordaniya: "Dar ən-nəfais" nəşriyyatı, 2001, səh. 229, 274; Əli Əhməd Nədvi. İslam maliyyə münasibətlərində fiqh qaydaları. Ər-Riyad: "Racihi" Sərmayə-Bank şirkəti" nəşrləri, 2000, I cild, səh. 480.

[1] Əbu Hamid əl-Qəzali. Üsul elminə dair seçilmiş kitab (əl-Müstəsfa fi elm əl-üsul). Qahirə: "Məktəbə ət-ticarət əl-kübra" nəşriyyatı, 1937, I cild, səh. 139-140; Əbu İshaq əş-Şatibi. Şəriətin ana qaydalarına dair uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət). Qahirə: "Məktəbə ət-ticarət əl-kübra" nəşriyyatı, tarixsiz, I cild, səh. 38, III cild, səh. 46-47.

prinsip budur ki, "məqsəd"lərin hökmləri vasitələr üçündür (***lil-vəsail əhkam əl-məqasid***). Başqa bir fiqhi qaydada deyilir: "Vacibi vacib edən hər bir şey vacibdir"[1] (***Mə lə yətimmu əl-vacib illə bih, fə huvə vacib***)[2].

Ola bilsin ki, ikinci dərəcəli məqsədlərin bəziləri digərlərindən qısamüddətliliyinə görə az əhəmiyyətlidir. Amma bütövlükdə onlar uzunmüddətliliyinə görə çox böyük əhəmiyyətə malikdir. Və bu məqsədləri həyata keçirməmək ciddi sosial, iqtisadi və siyasi problemlərə səbəb ola bilər. Onu da deyək ki, əlavə məqsədlərin zaman keçdikcə artıb çoxalması, ya da məzmun dəyişikliyinə uğraması mümkündür. Qurani-Kərim və Pak Sünnədəki zənginlik imkan verir ki, vəziyyətə uyğun olaraq ikinci dərəcəli məqsədlər saf-çürük edilsin, ya da sayları artırılsın. Bunun üçün bütün insan haqlarına lazımi diqqətin verilib-verilmədiyinə, müxtəlif tələbatların təmin olunub-olunmadığına baxmaq lazımdır.

Madam ki inkişafın davamlılığını zəmanət altına alıb, cəmiyyətin rifahına çalışırıq, elə isə başa düşməliyik ki, Qəzalidən gətirilmiş iqtibasdakı "qoruma" sözü dedikdə reallaşmış məqsəd-

[1] İzzəddin ibn Abdussalam. İnsanların mənafeyi haqda hökmlərin qaydaları (Qəvaid əl-əhkam fi məsalih əl-ənam). Beyrut: "Dar ən-nəşr" nəşriyyatı, tarixsiz, I cild, səh. 46; Əbu İshaq əş-Şatibi. Şəriətin ana qaydalarına dair uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət). Qahirə: "Məktəbə ət-ticarət əl-kübra" nəşriyyatı, tarixsiz, I cild, səh. 38, II cild, səh. 394; Mustafa Zərqa. Yeni formatda islam fiqhi. Dəməşq: "Əlifba əl-ədib" nəşriyyatı, 1967, səh. 784, 1088; Əli Əhməd Nədvi. İslam maliyyə münasibətlərində fiqh qaydaları. Ər-Riyad: "Racihi" Sərmayə-Bank şirkəti" nəşrləri, 2000, I cild, səh. 480.

[2] Yəni, vacibin vaciblik statusunu zədələməyən, onu təmin edən hər bir şeydən istifadə zəruridir. Ancaq bu, haram yolla vacib əməllərin icrası kimi başa düşülməməlidir. Çünki vacib sayılan bir işi haram yolla görmək, əslində ona xələl gətirir – ***tərcüməçinin qeydi***.

ləri mövcud vəziyyətdə saxlamaq nəzərdə tutulur. Bir şeyi qorumaq o halda mümkündür ki, "zirvə"də olaq. Əgər "zirvə"yə çatmaq insan gücünün bacarmadığı şeydirsə, müqayisədə ən yaxşı olanı əldə etmək hər zaman mümkündür. Tarixi təcrübə göstərir ki, bu məqsədləri davamlı şəkildə reallaşdırmamaq onların qorunmasını və cəmiyyətdə uzunmüddətli xoşbəxtliyi qeyri-mümkün edir. Bununla da, ətalət yaranır, ətalət də tənəzzüllə nəticələnir. Böyük filosof, şair-mütəfəkkir Məhəmməd İqbal farsca yazdığı şerlərinin birində bunu bütün aydınlığı ilə belə ifadə etmişdi:

Madam ki hərəkətdəyəm, deməli, mövcudam
Yox, hərəkət etmirəmsə, onda ölüyəm...

Elə isə zəruridir ki, əsas məqsədlər ciddi və davamlı şəkildə təkmilləşdirilsin, özü də o yolla təkmilləşdirilsin ki, rifah səviyyəsinin yaxşılaşdırılması və dəyişkən ehtiyaclarla ayaqlaşdırılması göstəricilərinin artmasını təmin etsin. Bu zaman təkcə ayrı-ayrı fərdlər deyil, bütöv cəmiyyət, bütün bəşəriyyət əsas götürülməlidir. Bununla da, hər kəs daha parlaq gələcəyə doğru addımlayacaqdır.

Əgər klassik fəqihlərin müzakirə etdikləri tələbatlar dairəsi ilə məhdudlaşsaq, sözügedən təkmilləşmənin baş verməsi çətinləşəcəkdir. Çünki dövr dəyişdiyi kimi tələbatlar da dəyişmişdir. Deməli, "məqsəd"ləri müzakirə edərkən yaşadığımız dövrü nəzərə almalıyıq.

O dövrün fəqihləri Qəzalinin "məqasid" nəzəriyyəsini qəbul etsələr də, ondakı ardıcıllığı mütləq götürməmişdilər[1]. Şatibi də bu ardıcıllığa həmişə sadiq qalmamışdır[2]. Bu onunla izah olunur ki, "məqsəd"lərin ardıcıllığı müzakirənin mahiyyətinə tabedir. Məsələn, İmam Qəzalidən təxminən bir əsr sonra yaşayıb-yaratmış görkəmli fəqih Fəxrəddin Razi (vəfat edib – hicri 606 / miladi 1209) sıralamada ilk yeri "canın qorunması"na vermişdir. Belə sıralama davamlı inkişafla əlaqəli müzakirələrdə daha məntiqli görünür. Bunun da çox sadə səbəbi vardır: inkişaf Pak və Uca Allahın yer üzünə varis qıldığı insan oğlunun qayəsidir və insan bu inkişafın icraçısı kimi çıxış edir[3]. Qurani-Kərimdə deyildiyi kimi, inkişaf da, tənəzzül də insanın öz əlindədir:

---

[1] Əhməd Rəysuni. İmam Şatibiyə görə "məqasid" nəzəriyyəsi. Ər-Riyad: "əd-Dar əl-elmiyyə lil-kutub əl-islamiyyə" nəşriyyatı, 1992, səh. 42.

[2] Belə ki Şatibi Qəzalinin göstərdiyi ardıcıllığa həm sadiq qalmış (Bax: Əbu İshaq əş-Şatibi. Şəriətin ana qaydalarına dair uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət). Qahirə: "Məktəbə ət-ticarət əl-kübra" nəşriyyatı, tarixsiz, I cild, səh. 38), həm də qalmamış, tamamilə fərqli sıralamadan (dinin, canın, nəslin, var-dövlət və ağılın qorunması) söz açmışdır (bax: həmin kitab, III cild, səh. 46-47). Bu onu göstərir ki, Şatibi İmam Qəzalinin sıralamasını zəruri sıralama hesab etməmişdir. Dediyimiz kimi, müzakirə obyektinə uyğun olaraq, sıralamanın dəyişilməsi mümkündür. Bax: Əhməd Rəysuni. İmam Şatibiyə görə "məqasid" nəzəriyyəsi. Ər-Riyad: "əd-Dar əl-elmiyyə lil-kutub əl-islamiyyə" nəşriyyatı, 1992, səh. 41-55.

[3] Fəxrəddin Razi. Böyük təfsir. Beyrut: "Dar ehya ət-turas əl-ərəbi" nəşriyyatı, tarix göstərilməyib, V cild, səh. 160. Razinin sıralaması bu cür idi: canın, var-dövlətin, soy-kökün, din və ağılın qorunması. Razi nəsil əvəzinə soy-kök sözünü işlətmişdir. Qəzali və Şatibinin istifadə etdikləri nəsil sözü həm də doğulmayan insanları ifadə etdiyindən, soy-kök sözündən daha geniş məna daşıyır. Bu səbəbdən biz də nəsil sözünün istifadə edilməsinin daha doğru olduğunu düşünürük.

"...Hər hansı bir toplum öz halını dəyişmədikcə, Allah da onun vəziyyətini dəyişməz..." (ər-Rə`d, 11).

Şəriətin də əsas məqsədi budur ki, həm özünü, həm də təsirində qaldığı qurumları islahda insan oğluna kömək etsin. Bu səbəbdən biz şəriətin məqsədlərini sıralayarkən aşağıdakı cədvəldə "öz"ü (canı, nəfsi) ilk sırada yerləşdirmişik:




**Cədvəl 1. Şəriətin məqsədləri.** İnkişaf və bəşəriyyətin rifahı o halda mümkündür ki, hər bir fərdə münasibətdə bu beş məqsəd həyata keçirilsin.

# CANIN QORUNMASI

Nəzərə alsaq ki, bəndələrə fayda bəxş edib, zərəri onlardan uzaqlaşdırmaq şəriətin əsas məqsədlərindəndir, onda bunun necə həyata keçirilməsini izah etmək lazımdır. Bunun üçün insanın zəruri tələbatlarını müəyyənləşdirmək tələb olunur. Bu təkcə ona görə deyildir ki, insan oğlunun inkişaf və rifah səviyyəsi yüksəlib davamlılıq kəsb etsin; həm də ona görədir ki, o, yer üzündə öz varislik vəzifəsini fəal surətdə yerinə yetirsin. "Bəndələrə fayda gətirən, zərəri onlardan uzaqlaşdıran tələbatlar" da adlandırılması mümkün olan bu tələbatlara Qurani-Kərim və Pak Sünnədə həm birbaşa, həm də dolayısı ilə işarə olunub. Sonrakı dövrlərdə fəqihlər öz ictihadlarında bu tələbatların təsnifatını aparmışlar. Onları təmin etmək imkan verir ki, əxlaqi, fiziki və əqli səviyyə yüksəlsin, indiki və gələcək nəsillərin texniki bacarıqları möhkəmlənsin, nəticədə, daimi xoşbəxtlik zəmanət altına alınsın.

# LƏYAQƏT, İNSANA EHTİRAM, BƏŞƏRİ QARDAŞLIQ VƏ SOSİAL BƏRABƏRLİK

İnsanın şərəf-izzəti, ona ehtiram, bəşəri qardaşlıq və sosial bərabərlik sözügedən tələbatların mühüm tərəfini əks etdirir (bax: cədvəl 2). İslam dünyagörüşü bu məsələyə o prizmadan yanaşır ki, korlanmadığı müddətcə insanın həqiqi təbiəti – fitrəti[1] safdır, istənilən psixoloji nöqsandan xalidir[2]:

---

[1] Misirli alim Əli Cümə fitrət haqqında yazır: "İnsana fitrən bəxş edilmiş xeyir məfhumuna daxildir:
- Qeyri-anormallıq.
- Əxlaq dəyərləri. Məsələn, insan bilir ki, şükür etmək bəyəniləndir, xeyirdir, nankorluq isə şərdir, bəyənilməyən davranışdır.
- Tək yaradana ibadət duyğusu.
- Aksiomatik həqiqətlər. İnsan dərk edir ki, hər nəticənin bir səbəbi vardır, küll hissədən üstündür, ziddiyyət puçluqdur.
- Gözəllik dəyərləri. Buraya gözəlliyi, təmizliyi, nizam-intizamı, xeyri, gücü... sevmək daxildir.
- İnsanı özünü qorumağa, yeyib-içməyə, daldalanmağa, geyinməyə, evlənməyə sövq edən ehtiyac və instinktlər.
- İşləmə, düşünmə, yaradıcılıq və seçim qabiliyyəti.

Fitrət Allahın insanı xeyirlə bütövləşmək üzrə yaratmasıdır. Yəni, Uca Rəbb xeyrə dair biliyi insanın nəfsinə təlqin etmişdir. Nəticədə, insanın xeyrə bələd olmağı üçün kənardan başqalarının onu etməsinə ehtiyac yoxdur". Bax: Əli Cümə. İslam metodologiyasının əsas mənbələri / ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı: "CBS – Polygraphic Production", 2009, səh. 29 – ***tərcüməçinin qeydi.***

[2] Əbu Abdullah Məhəmməd ibn Əhməd əl-Ənsari əl-Qürtubi. əl-Ca`me li-əhkam əl-Quran. Beyrut: "Dar əl-kitab əl-ərəbi" nəşriyyatı, 1952, XIV

"(Ya rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) – fitrətə tərəf tut..." (ər-Rum, 30);

"Biz insanı ən gözəl biçimdə yaratdıq!" (ət-Tin, 4).

Fitrəti qoruyub-saxlamaq çox vacibdir. Çünki Allah Təala irqindən, rəngindən, cins və yaşından asılı olmayaraq, insan oğluna şərəf-izzət bəxş etmişdir. Quran bunu açıq şəkildə bəyan edir:

"Biz, Adəm övladını şərəfli və hörmətli elədik ..." (əl-İsra, 70).

Bu şərəf-şanın, ilahi ehtiramın nəticəsidir ki, insan oğlu yer üzündə Allahın varisi (xəlifəsi) adına layiq görülüb:

"(Ya rəsulum!) Sənin rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", – dedikdə..." (əl-Bəqərə, 30).

Görəsən, yer üzündə Allahın varisi olmaqdan böyük şərəf vardırmı?!

Madam ki insanlar yer üzündə Allahın varisidirlər, onda hamılıqda bərabərdirlər, bir-birinə qardaşdırlar; onlar birlikdə dinc yaşamalı, bir-birlərinə ehtiram bəsləməli, biri digər tərəfin fikirlərini, mövcudluğunu... qəbul etməlidir. Deməli, Allahın insanlara əmanət verdiyi bütün resurslardan səmərəli və düzgün formada istifadə etmək bəşəriyyəti xoşbəxt edəcəkdir.

Onu da deyək ki, ətraf mühit, o cümlədən heyvanlar, quşlar və həşəratlar Allahın əmanətidir; indiki və gələcək nəsillərə zərər dəyməsin deyə onları da qorumaq lazımdır. Bu səbəbdən islam insana "anadangəlmə günahkar" gözü ilə baxmır. Çünki "anadangəlmə günahkar" anlayışı onun şərəf-izzətini azaldır ki,

---

cild, səh. 24-31; Məhəmməd ət-Tahir ibn Aşur. İslam şəriətinin məqsədləri // araşdırma Məhəmməd Tahir Misavinindir. İordaniya: "Dar ən-nəfais" nəşriyyatı, 2001, səh. 261-266.

bu üzdən islam dünyagörüşünə yaddır. Necə ola bilər ki, Allah anadangəlmə günahkar yaradır, insanı etmədiyi bir günaha ömürlük təhkim qılır?! "İlk günah" ideyasına[1] görə, günah işləmək nəsildən-nəslə ötürülmək xassəsinə malikdir və hər bir insan dünyaya başqalarının günahları ilə yüklənərək gəlir. Bu səbəbdən, insanı işləmədiyi "ilk günah"dan qurtarmaq üçün xilaskar(!) mövcuddur. Yaxşı, nə üçün bu xilaskar yer üzündə ilk insan meydana çıxdığında deyil, dünyanın sonuna az qalmış peyda olur?! Əgər insan günahkar doğulubsa, nə üçün əməllərinə görə sorğu-suala çəkilir?!

Məhz bu səbəbdən "ilk günah" anlayışı "Hər kəs özünə cavabdehdir" – deyən islam təlimlərinə ziddir. Quranda açıq-aşkar deyilir ki, hər insan öz əməlinə görə məsuliyyət daşıyır:

"De: "Allah hər şeyin rəbbi olduğu halda, heç mən Ondan başqa rəbmi istərəm? "Hər kəsin qazandığı günah ancaq özünə aiddir. Heç bir günahkar başqasının günahını daşımaz. Axır dönüşünüz rəbbinizədir. O zaman (Allah) sizə aranızda ixtilaf doğuran məsələlər barəsində xəbər verəcəkdir" (əl-Ənam, 164);

"Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç bir günahkar başqasının günahını daşımaz. (Hərə öz günahına cavabdehdir). Biz, peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab vermərik!" (əl-İsra, 15);

"Heç bir günahkar başqasının günahını daşımaz. Günah yükü ağır olan kimsə yükünü daşımaq üçün (başqa birisini köməyə) çağırsa və (çağırılan adam onun) yaxın qohumu olsa belə, o yükdən bir şey daşınmaz. (Ya Peyğəmbər!) Sən ancaq

---

[1] Xristian ənənəsinə görə, Adəm Allahın qadağasını pozub Cənnətdəki ağacın meyvəsindən yediyi üçün günah törətmiş, beləliklə, bütün insanlığı bu günaha ortaq etmişdir. Nəticədə, hər kəs anadan günahkar doğulur – ***tərcüməçinin qeydi.***

Rəbbindən (Onun əzabını) görmədikləri halda qorxanları və (vaxtlı-vaxtında) namaz qılanları qorxudub xəbərdar edirsən. Hər kəs (günahlardan, küfrdən) təmizlənsə, özü üçün təmizlənmiş olar (savabı özünə yetişər). Axır dönüş ancaq Allahadır!" (Fatir, 18);

"Əgər küfr etsəniz (Allahın nemətlərini dansanız, bunun zərəri Allaha yox, ancaq sizin özünüzə olar). Çünki Allah sizə (sizin ibadətinizə) əsla möhtac deyildir. Amma bəndələrinin küfr etməsi Ona xoş getməz. Əgər (Allahın nemətlərinə) şükür etsəniz, sizin bu şükrünüz Ona xoş gələr. Heç bir günahlar başqasının günahını daşımaz (hərə öz günahına cavabdehdir). Sonra Rəbbinizin hüzuruna qayıdacaqsınız. O sizə (dünyada) nə etdiklərinizi (bir-bir) xəbər verəcəkdir. Həqiqətən, Allah ürəklərdə olanları biləndir!" (əz-Zumər, 7);

"(Tövratda və İbrahimin səhifələrində deyilənlər bunlardır: ) "Heç bir günahkar başqasının günahına yüklənməz!" (ən-Nəcm, 38).

Həmçinin, bu anlayış Allahın "Rəhman" və "Rəhim" atributları ilə ziddiyyət təşkil edir. Bu atributları biz, demək olar ki, hər gün ibadətlərimizdə təkrar-təkrar yada salırıq. Ağıla batmır ki, Allah, bir tərəfdən, insanları anadangəlmə günahkar yaratsın, digər tərəfdən də "Nöqsanlardan Uzaq" (***Sübhan***), "Çox Sevən" (***Vədud***), "Çox Bağışlayan" (***Ğəfur***) və digər bu kimi gözəl adlara sahib olsun?! Ayədə deyilir:

"Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin. Onun adları barəsində küfr edənləri (əziz sözündən Uzza, Allah sözündən əl-Lat, mənnan sözündən Mənat kimi adlar düzəldib haqq yoldan azanları) tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar!" (əl-Əraf, 180).

XIX əsrin rasionalistləri və romantikləri kimi müasir dövrün də, demək olar ki, bütün filosofları "ilk günah" (insanın günahkar doğulmağı) anlayışını qəbul etmirlər.

Maarifçilik hərəkatından təsirlənmiş qərbli filosofların təsis etdikləri "determinizm"[1] və "ekzistensializm" anlayışları da islam dünyagörüşü ilə üst-üstə düşmür. İslam insan həyatının materiya (Karl Marks), cinsi instinkt (Ziqmund Freyd), fitrət (Lorens), ətraf mühit (Pavlov, Vatson, Skinner) tərəfindən idarə olunmasını rədd edir[2].

Determinizm və məsuliyyət bir-birinə tamamilə zidd anlayışlardır. Çünki determinizm həm insanın ləyaqətini məhdudlaşdırır, həm də onun mövcud şəraitə, resurslardan qeyri-bərabər istifadəyə görə məsuliyyət daşıdığını inkar edir[3].

---

[1] **Determinizm**: bütün sosial və təbii hadisələrin ümumi obyektiv qanunlardan və səbəbiyyət əlaqəsindən asılılığı haqqında fəlsəfi təlim – ***tərcüməçinin qeydi.***

[2] Bir sıra müəlliflərin determinizm və məsuliyyət problemi barədəki görüşləri üçün bax: Determinism and Freedom in the Age of Modern Science, "Sydney Hook", 1958. Kitab yeni dövr filosoflarının tezislərindən ibarətdir. Həmçinin, bax: Free Will, "Morgenbesser and James Walsh", 1962. Əsasən tələbələr üçün nəzərdə tutulmuş bu kitabda klassik və müasir müəlliflərin polemikaları cəm edilmişdir. Eləcə də bax: A.J. Alden. Free Action, London, 1961. Kitab azad iradə ətrafında aparılmış polemikaların təmərküzləşdiyi bir sıra anlayışlarla bağlı ciddi elmi təhlilləri ehtiva edir. Kitabda azad iradənin isbatına hər nə qədər birbaşa cəhd göstərilməsə də, geniş müstəvidə qəbul olunmuş determinizm nəzəriyyəsinin əsasları ciddi şəkildə tənqid edilir.

[3] Chapra M. Umar. Islam and the Economic Challenge, Leicester, UK: The Islamic Foundation, 1992, pp. 202-206.


Xoşbəxtlik
Din
Nəsil
Ağıl
Var-dövlət
Sağlam düşünməyi təmin edən şəraitin yaradılması və xoşbəxtlik (14)
Cinayət və mənfi davranışların minimum həddə endirilməsi (13)
Ailə və cəmiyyətin möhkəmliyi (12)
Ailə və uşaqları düzgün tərbiyə (11)
Pul və gəlir arasında balansın qorunması (10)
İşləmə imkanları və azad iş yerləri (9)
Ehtiyacların təmini (8)
Düzgün idarəetmə (7)
Təhsil (6)
Azadlıq (5)
İnsan həyatının, var-dövləti və şərəfinin təhlükəsizliyi (4)
Mənəvi-əxlaqi yüksəliş (3)
Ədalət (2)
İnsanın şərəf-izzəti, ona ehtiram, bəşəri qardaşlıq və sosial bərabərlik (1)
Canın qorunması

**Cədvəl 2**

Sartrın ekzistensialist görüşləri də islam tərəfindən rədd edilir[1]. Sartr hesab edirdi ki, insanlar mütləq formada azaddırlar. Hətta onların bu azadlıqdan imtina haqqı vardır[2]. Sartra görə, hər bir halda insanın intellektual həyatı məqsədyönlülük, seçim və məsuliyyətə əsaslanır. Təbii ki, bu fikir determinist dünyagörüşündə müsbət dəyişikliyi əks etdirir. Amma Sartr azadlığa mütləq don geydirir və hesab edir ki, insan hər şeyi etməkdə sərbəstdir. Yəni, insan həyatı həlledici məqsədlər üzərində qurulmayıb; bəşəriyyət üçün nəzərdə tutulmuş ülvi və ya obyektiv dəyərlər, ilahi qanunlar, platonik formalar deyilən şey mövcud deyildir. İnsanlar isə ümidsizdirlər, bütövlükdə öz işlərini görmək üçün yer üzündə "tərk" ediliblər. Sartr iddia edirdi ki, insanın azadlığı dəyərlərin fövqündədir; onun hər hansı bir dəyəri seçməli olduğuna dair heç bir "xarici" və ya obyektiv əsas (arqument) mövcud deyildir[3]. Bu səbəbdən, fərdin mənafeyi ilə cəmiyyətin mənafeyi arasında uyğunluq yaratmaq, resursları ədalətli formada bölüşdürmək üçün ortaq dəyərləri müəyyənləşdirmək və ya fərdin azadlığını məhdudlaşdırmaq yolverilməzdir. Resursların bölüşdürülməsində isə bazar münasibətlərini tənzimləyən mexanizmlər əsas rol oynayır.

Mütləq azadlıq anlayışı öz növbəsində "qarışmama" (Laissez-faire) və "aksioloji bitərəflik" (Value Neutrality) ideyalarının yaranmasına səbəb olmuşdur. Təbii ki, hər bir fərd azad olmalı-

---

[1] Jean-pall Sartre. Being and Nothingness // tərcümə edən: Hazel Barnes. London: "Methuen", 1957; Leslie Stevenson. Seven Theories of Human Nature, Oxford: "Clarendon Press", 1974, pp. 78-90; Antony Manser. Sartre: A Philosophic Study, London: "Athlone Press", 1966

[2] Jean-pall Sartre. Being and Nothingness // tərcümə edən: Hazel Barnes. London: "Methuen", 1957, p. 439, 615.

[3] Yenə orada, səh. 38.

dır, amma cəmiyyətin xoşbəxtliyi də zəruridir və buna etinasız yanaşmaq olmaz. Deməli, fərdlərə yekdilliklə təsdiqlənmiş bəzi məhdudlaşdırmalar tətbiq etmək lazımdır ki, başqalarının haqlarını tapdalamasınlar, ümumi rifaha xələl gətirməsinlər. Ancaq belə bir sual yaranır: Bəs həmin məhdudlaşdırmaları hansı qurum müəyyənləşdirməlidir? Biz bu problemi beşinci paraqrafda – "Şəxsiyyət üçün nə lazımdır?" paraqrafında müzakirə edəcəyik.

# ƏDALƏT

Ədalət bir məqsəd olaraq, şəxsiyyətin mənafeyini qorumaq üçün lazımdır[1]. Əgər şərəf-izzət, ehtiram, bəşəri qardaşlıq, sosial bərabərlik və ümumi mənafedə ifadə olunan "məqsəd"lər sosial və iqtisadi ədalətə əsaslanmazsa, içiboş anlayışlar olaraq qalacaqdır. Bunun üçün Qurani-Kərimdə ədalət təqvaya yaxın anlayış kimi təqdim olunur:

"Ey iman gətirənlər! Allah qarşısında (borcunuzu yerinə yetirməkdə) sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!" (əl-Maidə, 8).

Bu ona görədir ki, ədalət islam etiqadında əhəmiyyətli yerə sahibdir. Şübhə yoxdur ki, bütün xeyirxah əməllərə, o cümlədən ədalətə stimul verdiyi üçün təqva daha mühümdür. Bu

[1] Tədqiqatlar qəti şəkildə sübut etmişdir ki, dinə riayət səviyyəsinin artması əqli sağlamlığı təmin edir, psixoloji gərginliyi azaldır, insanın həyatdan razı qalmasına şərait yaradır. Bax: Christopher Ellison. Religious Involvement and Subjective Well-being. Journal of Health and Social Behavior, 1991, 31:1, pp. 80-99; Christopher Ellison. Religion, the Life Stress Paradigm, and the Study of Depression, in Jeffrey Levin, ed., Religion in Aging and Mental Health: Theoretical Foundation and Methodological Frontiers (Thousand Oaks, CA: Sage), 1993, pp. 78-121; Laurence Iannacconne. Introduction to the Economics of Religion, Journal of Economic Literature, September, 1998, pp. 1465-1496.

səbəbdən yer üzündə ədaləti bərqərar etmək Quranda bütün peyğəmbərlərin əsas vəzifəsi olaraq göstərilmişdir:

"And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik. Biz onlara birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər. Biz həddindən artıq möhkəm olan və insanlara fayda verən dəmiri də icad (nazil) etdik (mədənlərdən çıxartdıq) ki, Allah (Özünü) görmədən Ona (onun dininə) və peyğəmbərlərinə kömək göstərənləri (dəmirdən düzəlmiş silahlarla kafirlərə qarşı vuruşan mücahidləri) bəlli etsin. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir!" (əl-Hədid, 25).

Qurani-Kərimdə deyilir ki, ədalət olmazsa, yer üzündə əmin-amalıq da olmaz:

"İman gətirib imanlarını zülmə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır!" (əl-Ənam, 82)[1].

Ədalətsizliyin nəticəsi bədbəxtlikdir, müsibət və ziyandır:

"(O gün) üzlər (bütün insanlar) əzəli, əbədi olan (məxluqatın hər işini yoluna qoyan, onları dolandıran) Allaha təslim olub zəlil bir görkəm alar. Zülmə (günaha) yüklənən (Allaha şərik qoşan, küfr edən) ziyana düşüb mətləbinə yetişməz (ümidsizliyə uğrayar)" (Taha, 111).

---

[1] Ayənin kontekstindən məlum olur ki, küfr və şirk Allaha zülmdür. Qürtubi və İbn Kəsir kimi təfsirçilər bu haqda danışmışlar. Quran və Pak Sünnə hər bir insanla ədalətli davranmağa davamlı çağırış etdiyindən yuxarıdakı ayənin məzmununu daha geniş formada izah etmək, bütün insanları ədalət dairəsinə daxil etmək mümkündür. Böyük təfsirçi Fəxrəddin Razinin dediyinə görə, mö`təzili fəqihlərin çoxu bu cür düşünür. Bax: Fəxrəddin Razi. Böyük təfsir. Beyrut: "Dar ehya ət-turas əl-ərəbi" nəşriyyatı, tarix göstərilməyib, VII cild, səh. 60.

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* zülmü açıq şəkildə pisləmiş, "Qiyamət günü sahibinin qarşısına çıxacaq qaranlıqlar" kimi təsvir etmişdi[1]. Əslində Qiyamət gününün qaranlıqları bizim dünyada ədalətsizliyə yol verib işlədiyimiz günahların (qaranlıq əməllərin) inikasıdır. Bu qaranlıqlar əmin-amanlığın, davamlı inkişafın, ictimai həmrəyliyin təmini üçün görülən bütün işlərin, çəkilən zəhmətin hədər getməsinə səbəb olur. Odur ki yer üzündə narazılıq yaranır, gərginlik hökm sürür, çəkişmələr baş alıb gedir, nəhayət, tənəzzül baş verir. Buna görə də zülm və islam bir-birinə zidd anlayışlardır; birinin kökü tam kəsilmədikcə və ya təsiri zəifləmədikcə digərinin "işi düzəlmir". İslama görə, zülm bərabərsizliyin, saxtakarlığın, istismarın bütün formalarını özündə ehtiva edən geniş mənalı anlayışdır. Bunlardan istifadə edən insan başqalarına ya zərər toxundurur, ya onları hüquqlarından məhrum edir, ya da hüquqlarını nəzərə almır[2].

Quran və Sünnədə zülmə bu cür xüsusi münasibət klassik dövr müsəlman alimlərinin də əsərlərində öz əksini tapmışdır. Məsələn, Mavərdi (vəfat edib – hicri 450 / miladi 1058) hesab edirdi ki, ədalət "ülfətə (həmrəyliyə, dostluğa) çağırır, itaətə

---

[1] İmam Müslim. "Səhih" kitabı, "Yaxşılıq, qohumluq münasibətlərini qoruma, ədəb-ərkan" fəsli, "Zülmün haram olması" bölümü. Qahirə: "İsa əl-babi əl-hələbi" nəşriyyatı, 1955, IV cild, səh. 56. Hədisi Cabir ibn Abdullah rəvayət etmişdir. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bu hədisdə qaranlıqlar sözünü işlətmişdir. Qaranlıqlar axırda zülmət qaranlığa aparıb çıxaran qaranlıq dərəcələrinin rəmzi ifadəsidir. Bu haqda Quranda deyilir: "Yaxud (onların əməlləri) zəngin dənizin zülmətinə bənzər. Onu bir dalğa, o dalğanın üstündən bir dalğa, onun da üstündən bir bulud (dalğa) – zülmət üstündən zülmət örtər. O, əlini çıxartdıqda, haradasa onu görməz. Allah bir kəsə nur bəxş etməsə, onun nuru olmaz" (ən-Nur, 40).

[2] Chapra M. Umar. Muslim Civilization: The Causes of Decline and Need for Reform (Leicester, UK: The Islamic Foundation), 2008, pp. 27-28.

sövq edir; ölkə onunla abadlaşır, var-dövlət artır, nəsil böyüyür, hökmdarlar əmin-amanlıqda olur... Zülmə gəlincə, tez bir zamanda onun qədər yer üzünü xarabaya çevirən, vicdanları korlayan ikinci bir şey yoxdur"[1].

İbn Teymiyyə (vəfat edib – hicri 728 / miladi 1328) deyirdi:

"Ədalətli olmaq hər kəsə hər bir şeydə vacibdir. Zülm etmək isə hər kəsə hər bir şeydə haramdır. Fərqi yoxdur müsəlmandır, kafirdir və ya zalımdır – heç kəsə zülm etmək olmaz"[2].

O öz dövründə geniş yayılmış "Allah ədalətli dövləti – küfr üzərində qurulsa da, – baqi qılar. İslam dövlətini isə zülmə yol verərsə, məhv edər" prinsipini doğru hesab edirdi[3].

İbn Xəldun da (vəfat edib – hicri 808 / miladi 1406) bildirirdi ki, "Zülm mədəniyyəti məhv edir"[4].

Bir cəmiyyətin fərdləri tərəfindən müəyyən davranış qaydalarına düzgün riayət edilməzsə, ədalətin bərqərar olması qeyri-mümkün hala gəlir. Həmin qaydalar dini dünyagörüşündə əxlaq qaydaları, təşkilati iqtisadiyyatda (Institutional Economics) isə "institutlar" adlanır. Həmin dəyərlərə daxildir: sadiqlik, insaf, intizamlılıq, şüurluluq, oyanıqlıq, özünəinam, dözüm, təvazökarlıq, tədbirlilik, valideynlərə, müəllim və yaşlılara hörmət,

[1] Əbülhəsən Əli əl-Mavərdi. Dünya və dinin ədəb-ərkanı (Ədəb əd-dünya vəd-din) / çapa hazırlayan: Mustafa əs-Səqa. Qahirə: "Mustafa əl-babi əl-hələbi" nəşriyyatı, 1955, səh. 125.

[2] İbn Teymiyyə. Fitvalar toplusu / araşdırıb çapa hazırlayan: Əbdürrəhman əl-Əsimi. Ər-Riyad: "Mətabe ər-Riyad" nəşriyyatı, 1963, VIII cild, səh. 177; İbn Teymiyyə. Sünnə yolu / araşdırıb çapa hazırlayan: Məhəmməd Rəşad Salim. Ər-Riyad: İmam Məhəmməd adına Mədinə İslam Universitetinin nəşrləri, 1986, V cild, səh. 127.

[3] İbn Teymiyyə. İslamda "hisbə" / araşdırıb çapa hazırlayan: Əbdüləziz Rəbbah. Dəməşq: "Dar əl-bəyan" nəşriyyatı, 1967, səh. 7.

[4] İbn Xəldun. Müqəddimə, səh. 287.

yoxsullara, əlil və bədbəxt insanlara şəfqət (qayğı), həm yaşadığımız cəmiyyətdə, həm də dünyanın hər bir yerində başqalarının hüquqlarını gözləmək. Bu dəyərlərə səmimi riayət öz növbəsində qarşılıqlı inamı formalaşdıracaq, insanlar arasında dostluq münasibətlərinin yaranmasına, bir-birlərinə kömək etmələrinə, bir-birlərinin qarşısındakı öhdəlikləri yerinə yetirmələrinə səbəb olacaqdır. Bununla da, həm ailə, həm də cəmiyyət daxilində həmrəylik güclənəcək, başqalarını qəbul şüuru formalaşacaq, dinc birgə yaşama baş verəcək, çəkişmə və ədavətə son qoyulacaq[1], nəticədə, sosial kapitalda artım yaranacaqdır. Bu artım ədalət və məhsuldarlığın artması üçün çox zəruridir. Beləliklə, inkişaf baş verəcək, bəşəriyyət xoşbəxt olacaqdır.

[1] Quran və Pak Sünnədə təkidlə tələb olunur ki, sözügedən dəyərlərə riayət etmək lazımdır. Bu dəyərlər islam dünyagörüşünün ayrılmaz tərəfini təşkil edir. Həmin dəyərlərə əməl etməyənlər iltizamlı (riayətkar) müsəlman hesab olunmurlar.

# MƏNƏVİ-ƏXLAQİ YÜKSƏLİŞ

Mənəvi təkamül və əxlaqi yüksəliş hər bir insan üçün zəruridir (üçüncü məqsəd). Bu məqsədin reallaşması imkan verəcəkdir ki, islam dünyagörüşünün də tələb etdiyi kimi, hər kəsin maraqları təmin olunsun. Lakin ülvi əxlaqi dəyərlərə əsaslanan bütün davranış qaydalarına səmimi riayət o halda mümkündür ki, sağlam dünyagörüşünə (biz bu haqda "Dini möhkəmləndirməyin ikinci əsas məqsədi" başlığı altında söz açmışıq) əsaslanan fəal təşviq mexanizmi işlənib-hazırlansın.

# CANIN, VAR-DÖVLƏT VƏ ŞƏRƏFİN QORUNMASI

İslam dünyagörüşü və onunla bağlı dəyərlər canın, var-dövlət və şərəfin qorunmasına xüsusi əhəmiyyət verir (dördüncü mənafe). Qurani-Kərimə görə, günahsız yerə bir insanı (kafir və ya müsəlman olmağının fərqi yoxdur) öldürmək bütün insanları öldürməyə, bir nəfərin həyatını xilas etmək isə bütün insanların həyatını qurtarmağa bərabərdir:

"Buna görə də İsrail oğullarına (Tövratda) yazıb hökm etdik ki, hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur. Bizim peyğəmbərlərimiz onlara (İsrail oğullarına) açıq möcüzələr gətirmişdilər. Bundan (bu möcüzələrdən) sonra da onların bir çoxu yer üzündə (küfr, qətl və cinayət etməklə) həddi aşdılar" (əl-Maidə, 32).

Bu ki təbiidir. Çünki müsəlmanlarda olduğu kimi qeyri-müsəlmanların da həyatını məhv etmək haram sayılmasaydı, islamın insan həyatına ehtiramın göstərilməsinə və bəşəri qardaşlığa çağırışı heç bir məna kəsb etməzdi. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Vida xütbəsində demişdi:

"Bir-birinizin canına, malına və namusuna təcavüz etməyiniz haram işdir. Eynilə bu gündə, bu ayda, bu torpaqlarda olduğu kimi!"[1]

Əgər bir hacı bu cür ehtirama layiqdirsə, onda həmin ehtiram hər bir kəsin canına, var-dövləti və namusuna da şamil edilməlidir.

[1] Hədisi İbn Kəsir (vəfat edib – hicri 774 / miladi 1373) "əl-Hucurat" surəsinin 13-cü ayəsini ("Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır") təfsirini verərkən rəvayət etmişdir. Bax: Əbülfida İsmayıl İbn Kəsir. Əzəmətli Quranın təfsiri. Qahirə: "İsa əl-babi əl-hələbi" nəşriyyatı, (tarix göstərilməyib), III cild, səh. 365.

# AZADLIQ

Şəxsiyyətin inkişafında zəruri sayılan beşinci tələbat azadlıqdır. Azad olmayan insan bəzən yaradıcılıq təşəbbüsü və həvəsini itirir. Bununla da, tərəqqi və rifah baş vermir. Madam ki insan Allahın yer üzündəki varisidir, elə isə heç kəsə tabe olmamalı, alçalmamalıdır. Bu səbəbdən Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* əsas vəzifələrindən biri insanları buxov və qandallardan xilas etmək olmuşdur:

"O kəslər ki, əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri rəsula – ümmi (heç kəsin yanında oxuyub elm öyrənməmiş və ya məkkəli) peyğəmbərə tabe olurlar. (O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar. Ona (o Peyğəmbərə) iman gətirən, yardım göstərən və onunla (Quranın) ardınca gedənlər məhz onlar nicat tapanlardır!" (əl-Əraf, 157).

Buna görədir ki, istər siyasi, istər sosial, istər iqtisadi olsun fərqi yoxdur, köləliyin bütün formaları islam təlimləri ilə ziddiyyət əmələ gətirir. Heç kəsin, hətta dövlətin hüququ çatmır ki, azadlığı müsadirə etsin, insanları kölə vəziyyətinə salıb alçaltsın. Bəlkə də, elə bu prinsip ikinci xəlifə Ömər ibn əl-Xəttaba aşağıdakı məşhur sözü dedirtmişdi:

"Anaları azad doğduqları halda insanları nə haqla kölə etmisiniz?!"[1]

---

[1] Əli Təntavi, Naci Təntavi. Ömərə dair xəbərlər. Dəməşq: "Dar əl-fikr"

İnsanların Allah Təala tərəfindən yer üzünə varis qılınmaları o demək deyildir ki, onlar, Sartrın ekzistensialist görüşlərində olduğu kimi, mütləq formada azaddırlar. Çünki azadlıq əxlaq dəyərləri çərçivəsindədir, deməli, məhduddur. Bu təkcə onların deyil, həm də bütün məxluqatın xoşbəxtliyi üçündür. Allah Təala insanı yaratdığı zaman mələklər başa düşmüşdülər ki, bu məxluq yer üzündə Allahın varisi (xəlifəsi) olacaq deyə Allah ona təşəbbüs və hərəkət azadlığı bəxş ediləcəkdir. Bu səbəbdən qorxmuşdular ki, sahib olduğu azadlıq insanı yer üzündə fitnə-fəsad çıxarıb, qan tökməyə sövq etsin:

“(Ya rəsulum!) Sənin rəbbin mələklərə: “Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam”, – dedikdə (mələklər): “Biz Sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?” – söylədilər. (Allah onlara:) “Mən bildiyim şeyi siz bilmirsiniz!” – buyurdu” (əl-Bəqərə, 30).

Bəlkə də, bu qorxu ondan qaynaqlanırdı ki, mələklər insan yaradıldığı zaman Allahın ona azadlıqla yanaşı, üç “nemət” də bəxş edəcəyindən xəbərsiz idilər. Bu üç nemət onun doğru həyat sürməsinə kömək edəcəkdi. Birinci nemət vicdandır ki, insanın həqiqi təbiətini – fitrəti əks etdirir. Quranda deyilir ki, insanlar fitrət üzrə yaradılmışlar:

“(Ya rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) – fitrətə tərəf tut...” (ər-Rum, 30).

Fitrət qorunmazsa, insan “rəzillərin rəzili”nə çevrilər:

“Sonra da onu qaytarıb rəzillərin rəzili edərik!” (ət-Tin, 5).

---

nəşriyyatı, 1959, səh. 268.

İnsanı bundan xilas etmək üçün Allah Təala ona ikinci qiymətli neməti vermişdir ki, bu da səmavi hidayətdir (doğru yoldur). O səmavi hidayət ki, Allah Təala onu hər dövrdə peyğəmbərləri ilə insanlara göndərmişdir. Dediyimiz kimi, bu hidayət insanlara dünya işlərini sahmana salmaqda kömək edir. İnsanlar doğru yolu tutub getsələr, yer üzünü rifah bürüyər, ilahi missiya (yer üzündə Allahın həqiqi varisi olmaq vəzifəsi) tamamlanar[1]. Deməli, insanların azadlığı Allahın onlara xas qıldığı hidayət səbəbindən məhdud və nisbidir.

Üçüncü nemət ağıldır. Əgər insanların düşüncəsi vicdanlarına tabe olarsa və onlar Allahın göndərdiyi hidayətə sadiq qalarlarsa, azadlıqlarından müdrikliklə faydalanacaqlar ki, nəticədə, yer üzündə fitnə-fəsad yayılmayacaq, qan axıdılmayacaqdır.

Qeyd edək ki, həm fitnə-fəsad, həm də qantökmə islam dəyərlərinə görə böyük cinayətlərdən sayılır.

[1] Quranda deyilir: "Biz hər ümmətə: "Allaha ibadət edin, Tağutdan çəkinin! – deyə peyğəmbər göndərmişik..." (ən-Nəhl, 36); "Biz səndən əvvəl də peyğəmbərlər göndərmişdik. Onlardan kimisi haqqında sənə xəbər vermiş, kimisi haqqında xəbər verməmişik..." (Ğafir, 78); "(Biz) peyğəmbərlər (göndərdik). Onların bəzisinin əhvalatını bundan əvvəl sənə danışdıq, bəzisinin əhvalatını isə söyləmədik...." (ən-Nisa, 164).
Əbu Zərin rəvayət etdiyi hədisdə deyilir ki, Pak və Uca Allah müxtəlif dövrlərdə fərqi-fərqli xalqlara 124 min peyğəmbər göndərmişdir. Bax: Əbülfida İsmayıl ibn Kəsir. Əzəmətli Quranın təfsiri. Qahirə: "İsa əl-babi əl-hələbi" nəşriyyatı, (tarix göstərilməyib), "Nisa" surəsinin 164-cü ayəsinin təfsiri.
Şübhə yoxdur ki, islam bütün peyğəmbərlərə iman gətirməyi zəruri edən yeganə dindir.

# TƏHSİL

İndi isə keyfiyyətli təhsil yolu ilə insanın intellektual cəhətdən kamilləşməsi haqda danışaq (altıncı tələbat). Təhsil sistemi, bir tərəfdən, cəmiyyətə islam dünyagörüşü və əxlaq dəyərlərini öyrətməli, insanlara Allahın yer üzündəki varisi olduqlarını başa salmalıdır. Digər tərəfdən, onlara həm ciddi şəkildə, həm də məsuliyyətlə vəzifələrinin öhdəsindən gəlmək bacarığı aşılamalı, yaşadıqları cəmiyyətin elmi-texniki bazasını genişləndirməlidir. Mənəvi yüksəlişin olmadığı və elmi-texniki bazanın məhdudluğu şəraitində elə olur ki, düşüncə inkişafdan qaldığından sürətli və davamlı inkişafa töhfə verə bilmir. Bu səbəbdən Quran və Pak Sünnədə oxumağa (təhsil almaq) xüsusi şəkildə çağırış vardır. Biz bu haqda sonra – şəriətin üçüncü məqsədi mövzusuna toxunduğumuz zaman danışacağıq.

# DÜZGÜN İDARƏETMƏ

Əqidə haqda danışdığımız zaman görəcəyik ki, düzgün idarəetmə (hakimiyyət) şəxsiyyətin maraqlarını təmin etmək baxımından çox mühümdür (yeddinci mənafe). Siyasi stabillik və düzgün idarəetmə olmadan cəmiyyətdə davranış qaydalarını həyata keçirmək bəzən qeyri-mümkün hala gəlir. Belə olduqda qanunları pozma meylləri yaranır və bu, subyektiv amillərin təsiri ilə daha da güclənir[1]. Nəticədə, korrupsiya yayılır, ayrı-seçkilik baş alıb gedir, başqalarının tələbatları nəzərə alınmır. Bu səbəbdən müxtəlif dövrlərdə müsəlman alimləri (İmam Əbu Yusif, Mavərdi, İbn Teymiyyə, İbn Xəldun) düzgün idarəetmənin, sağlam hakimiyyətin əhəmiyyətini xüsusi şəkildə vurğulamışlar. Onların əsərlərində belə bir qənaət hakim idi ki, son bir neçə əsr ərzində sağlam hakimiyyətin olmamağı müsəlman ümmətinin tənəzzülünün əsas səbəblərindən biri təşkil edir[2].

---

[1] North, 1990, pp. 93-94.

[2] Bax: Chapra M. Umar. Muslim Civilization: The Causes of Decline and Need for Reform (Leicester, UK: The Islamic Foundation), 2008.

# YOXSULLUĞUN LƏĞVİ VƏ BAŞLICA TƏLƏBATLARIN TƏMİNİ

İslamda şərəfi-izzət, ədalət və qardaşlıq kimi dəyərlərə verilən əhəmiyyət yoxsulluğun aradan qaldırılıb, əsas tələbatların təmin olunmasını da zəruri edir. Bu, səkkizinci mənafedir.

Yoxsulluq bərabərsizlik doğurur, insanı acizləşdirib başqalarından asılı vəziyyətə salır. Hətta kasıblıq, Peyğəmbərin də *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dediyi kimi, "az qalsın ki küfr sayıla"[1]. Bu səbəbdən, kasıblıq insanın şərəf-şanının qorunmasını əmr edən islam təlimlərinə ziddir. Yoxsulluğun aradan qaldırılması o halda mümkündür ki, mövcud resurslar ideal və ədalətli şəkildə istifadə edilsin. Bundan əvvəl dediyimiz kimi, resurslar Pak və Uca Allahın əmanətidir. Əmanətə o halda sahib çıxmaq mümkündür ki, bu resursları hər kəsin tələbatını ödəyəcək şəkildə istifadə edək.

Yoxsulluğun ləğvi və cəmiyyətdəki tələbatların təmini problemi islam hüququ və fikrində mühüm yerə sahibdir. Fəqihlər həmrəydirlər ki, yoxsulların əsas ehtiyacları ilə maraqlanmaq fərzi-kifayədir[2]. Şatibi hesab edir ki, bu, cəmiyyətin taleyini

---

[1] Hədisi Ənəs ibn Malikə istinadən, Əbu Nüeymin "əl-Hidayə" kitabında "qaidə" başlığı altında deyilənlərə müvafiq olaraq, "əl-Came əs-sağir" kitabında Süyuti (vəfat edib – hicri 911 / miladi 1505) rəvayət etmişdir. Bax: eyniadlı kitab, səh. 89.

[2] Bax: İbn Həzm. əl-Mühəlla. Beyrut: "əl-Məktəbə ət-ticariyyə" nəşriyyatı, tarix göstərilməyib, VI cild, səh. 156, 725.

müəyyən edən problemdir[1]. Son dövrün alimlərindən Mövdudi, İmam Həsən əl-Bənna, Seyyid Qütb, Mustafa Sibai, Məhəmməd əbu Zəhrə, Baqir əs-Sədr, Məhəmməd əl-Mübarək və Yusif əl-Qərdavi də bu cür düşünürlər.

İndiyədək dediklərimiz belə bir sual yaradır: Fərdi və kollektiv müstəvidə təmin edilməsi prioritet sayılan tələbat hansıdır? Suala cavab axtarmış fəqihlər mənafeləri üç səviyyədə təsnifat etmişlər:

a) Zərurətlər (***zəruriyyat***)

b) Ehtiyaclar (***haciyyat***)

v) Yaxşılaşdırıcılar (gözəlləşdiricilər – ***təhsiniyyat***).

Fəqihlərin dediyi kimi, sözügedən tələbatlar insanların dini və dünyəvi həyatını şərtləşdirir, mənafelərini təmin edir, zərəri onlardan uzaqlaşdırır. Bu tələbatlar təmin olunmazsa, dünyadakı həyata xələl gələr və (insanlar) axirətdə cəzaya layiq görülərlər[2].

Bu mənafelərə əlavə (tamamlayıcı) tələbatlar daxil deyildir. Belə tələbatlar aristokrat cah-calalı və ultra-lüks həyat tərzi üçün lazımdır. Qeyd olunmalıdır ki, fəqihlər bu növ tələbatları ehti-

---

[1] Əbu İshaq əş-Şatibi. Şəriətin ana qaydalarına dair uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət). Qahirə: "Məktəbə ət-ticarət əl-kübra" nəşriyyatı, tarixsiz, II cild, səh. 177.

[2] Bu terminlərin fiqhi nöqteyi-nəzərdən izahı üçün bax: Əbu İshaq əş-Şatibi. Şəriətin ana qaydalarına dair uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət). Qahirə: "Məktəbə ət-ticarət əl-kübra" nəşriyyatı, tarixsiz, II cild, səh. 8-12; Anas Zarqa. Islamic Economics: An Approach tu Human Welfare, in Khurshid Ahmad, 1980, pp. 13-15; İmam Həsən əl-Bənna. Risalələr. İsgəndəriyyə: "Dar əd-dəvət" nəşriyyatı, 1989, səh. 268; İmam Həsən əl-Bənna. Çərşənbə söhbəti / nəşr edib: Əhməd Musa Aşur. Qahirə: "əl-Məktəbə əl-kübra" nəşriyyatı, 1985, səh. 410; Sayyid Abul A`la Mawdudi. Islam awr Jadid Ma`ashi Nazariyyat, 1959, pp. 136-140.

yac həddini aşmaq, israfa yol verib nəfsə qul olmaq hesab etmiş, təmin edilməsinə qarşı çıxmışlar[1].

[1] İsraf və bədxərcliyi haram davranış hesab edən ayələr üçün bax: "Ey Adəm oğulları! Hər bir ibadət vaxtı (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) gözəl libaslarınızı geyin, yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz!" (əl-Əraf, 31); "Qohum-əqrəbaya da, miskinə də, (pulu qurtarıb yolda qalan) müsafirə də haqqını ver. Eyni zamanda (mal-dövlətini əbəs yerə) sağa-sola da səpələmə! Həqiqətən, (malını əbəs yerə) sağa-sola səpələyənlər şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur!" (əl-İsra, 26-27); "Onlar (mallarını) xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta bir yol tutarlar" (əl-Furqan, 67).
Peyğəmbər də *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bədxərcliyi qadağan etmiş, sadəlik və təvazökarlığa çağırmışdır. O bildirirdi ki, nəinki yoxluqda, həm də bolluqda nemətləri (resursları) hədər etmək haramdır. Bax: Vəliyyəddin ət-Təbrizi. Mişkat əl-məsabih // tədqiq edib çapa hazırlayan: Məhəmməd Nasirəddin əl-Əlbani. Dəməşq: "əl-Məktəbə əl-islamiyyə" nəşriyyatı, 1966, I cild, səh. 427. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib: "Allah mənə tövsiyə etdi ki, təvazökar olasınız. Olasınız ki, aranızdan kimsə kimsəyə əziyyət etməsin, kimsə özünü yekəxana aparıb lovğalanmasın" (Hədisi İyaz ibn Həmmara istinadən Əbu Davud rəvayət edib. Bax: Əbu Davud. Sünən. Qahirə: "İsa əl-babi əl-hələbi" nəşriyyatı, 1952, II cild, səh. 572). Başqa bir hədisdə deyilir: "Allah paltarını arxasınca təkəbbürlə sürüyən şəxsə (Qiyamət günü) nəzər salmaz" (Bax: Məhəmməd ibn İsmayıl əl-Buxari. əl-Came əs-səhih. Qahirə: "Məhəmməd Əli Səbih" mətbəəsi, tarixsiz, VII cild, səh. 182; Müslim. Səhihi-Müslim // tədqiq edib çapa hazırlayan: Məhəmməd Fuad Əbdülbaqi, Qahirə: "İsa əl-babi əl-hələbi" mətbəəsi, 1955, III cild, səh. 1651). "Kim təvazökar şəkildə geyinərsə, Allah Qiyamət günü onu insanların qarşısına çağırar, ona istədiyini geyinmək ixtiyarı verər" (Tirmizi hədisi "həsən" saymış, "Came" adlı kitabının "Zöhd" fəslində Müaz ibn Ənəs əl-Cühəniyə istinadən rəvayət etmişdir. Bax: Məhəmməd ibn İsa ət-Tirmizi. Came (Töhfə əl-Əhvəzi" şərhi ilə). Beyrut: "Dar əl-kitab əl-ərəbi" nəşriyyatı, tarixsiz, III cild, səh. 312-313). "İsrafa yol vermədən, təkəbbür göstərmədən yeyin, için, sədəqə verin və geyinin" (Hədisi Süyuti (əl-Came

Amma onu da başa düşməliyik ki, islamda rahiblik, tərkidünyalıq, dünyadan imtina haram sayılır:

"Sonra onların ardınca (Musa, İlyas, Davud, Süleyman, Yunis və başqa) peyğəmbərlərimizi yolladıq. (Onlardan sonra) Məryəm oğlu İsanı göndərib ona İncil verdik. Onun ardınca

---

əs-səğir, II cild, səh. 96, İbn Ömərə istinadən), İmam Əhməd, Nəsai, İbn Macə və Hakim rəvayət etmişlər).

Göründüyü kimi, Quran və Pak Sünnədə sadə həyat tərzinə çağırış vardır. Alimlər bu çağırışa istinadən bildirmişlər ki, lovğalıq və təkəbbür haram davranışlardır. Bax: Şeybani. Kəsb (Sərəxşinin "Kitab əl-məbsut" kitabı ilə), XXX cild, səh. 266-268.

Sözün qısası, insan halal qazancı var deyə lovğalanmamalı, varından bədxərclik etməməli, onu fitnə-fəsada xərcləməməlidir. Fitnə-fəsad çıxarmaq, ayədən göründüyü kimi, haram sayılır: "Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah yolunda sərf et). Dünyadakı nəsibini də unutma. (O maldan qismətinin ancaq bir kəfən olduğunu bil. Pulunu mənasız yerə sağa-sola səpələmə; səhhətinin, sərvətinin, gəncliyinin qədrini bil. Sabah səni Allahın əzabından qurtara biləcək yaxşı əməllər et). Allah sənə (sərvət verməklə) yaxşılıq etdiyi kimi, sən də (varından yoxsullara, qohum-əqrəbaya xərcləməklə) yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!" (əl-Qəsəs, 77). İsrafın haram olmasına isə bu ayə dəlalət edir: "...israf etməyin. (Allah) israf edənləri sevməz!" (əl-Ənam, 141). Həmçinin, Allah Təala buyurur: "Onlar (mallarını) xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta bir yol tutarlar" (əl-Furqan, 67). Bütün bunlar göstərir ki, israf (Allah buyurur: "...(mal-dövlətini əbəs yerə) sağa-sola da səpələmə!" (əl-İsra, 26), təkəbbür, çoxluqla qürrələnmə haramdır. İsraf həm də yeməkdə, içməkdə, geyimdə haram davranış kimi qəbul olunur. Buna dəlil olaraq göstərilir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* iki cür paltar geyinməyi qadağan edibmiş: yaraşıqlı və bahalı paltarı! Birincisi israfa, ikincisi də xəsisliyə səbəb olur. Ən yaxşı paltar orta keyfiyyətli və cazibədar olmayan paltardır. Bax: Şeybani. Kəsb (Sərəxşinin "Kitab əl-məbsut" kitabı ilə), XXX cild, səh. 268.

gedənlərin qəlblərində bir-birinə şəfqət, mərhəmət oyatdıq. Onlar özlərindən rahiblik (tərki-dünyalıq) icad etdilər. Biz onu (rahibliyi) onlara vacib buyurmamışdıq. Onlar bunu Allah rizasını qazanmaq üçün etdilər, lakin ona layiqincə əməl (riayət) etmədilər (İncili təhrif edib İsanı Allah bildilər, Məhəmməd əleyhissəlamın peyğəmbərliyini dandılar). Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə (Allaha asi olan) fasiqlərdir" (əl-Hədid, 27).

Xidmət və məhsulların yuxarıdakı kateqoriyalara uyğun paylanmasında balans pozulmamalıdır. İslam fərdə bütün tələbatlarını (zərurət və ehtiyaclarla birlikdə) təmin etmək imkan verir ki, bu da onun faydalılıq və rifahını artırır. Bu səbəbdən xidmət və məhsulların məlum kateqoriyalara uyğun paylanması Müsəlman cəmiyyətinin zənginliyini, ümumi yaşayış səviyyəsini əks etdirməlidir. Deməli, tələbatlara baxış tərzi zaman keçdikcə texniki inkişafa, zənginlik və yaşayış səviyyəsinin yaxşılaşmasına uyğun olaraq dəyişilə bilir. Hal-hazırda bir neçə müsəlman ölkəsi əvvəlki on illiklərlə müqayisədə daha da varlanıb.

Dediyimiz kimi, tələbatlar sabit deyildir, zamana görə dəyişilməsi mümkündür. Hazırkı dövrdə Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* zamanında mövcud olmayan tələbatlar yaranıb və onları təmin etmək çox zəruridir. Bu tələbatlar yaşayış tərzində ciddi fərqlərin yaranmasına, cah-calal və ultra-təmtərağa, bununla da islam qardaşlığının, ictimai həmrəyliyin zəifləməsinə səbəb olmamalıdır. Təbii ki, bütün bunlarla yanaşı, islam cəmiyyətlərində ətalət və ümidsizlik yaradacaq hallar da arzuedilməzdir.

# İŞ İMKANLARI VƏ İŞLƏMƏK

Dilənçilik insanın şərəf-şanına xələl gətirdiyi üçün islamda qadağan edilib[1]. Bu səbəbdən insanın öz zəhməti hesabına ehtiyaclarını ödəməsi çox mühümdür (doqquzuncu məqsəd). Odur ki hər bir müsəlmanın həyatını özü qurması, özü və ailəsini dolandırması fərzi-eyn[2] sayılır[3].

---

[1] Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dilənməyi qadağan etmişdi. Məsələn, hədislərdə deyilir: "İnsanlara əl açıb dilənməyin" (Övf ibn Malikə istinadən Əbu Davud rəvayət etmişdir); "Qazanan əl dilənən əldən üstündür" (Abdullah ibn Ömərə istinadən İmam Buxari rəvayət edib). Həmçinin, Peyğəmbər ehtiyacı olmayanlara, canı sağ, bədəni sağlam şəxslərə sədəqə verməyi qadağan etmişdi: "Varlı insanlara, (işləməyə) qadir olanlara sədəqə vermək haramdır" (Əbu Davud, Nəsai, İbn Macə).
Peyğəmbər insanın özü-özünü dolandırmasını ehtirama layiq hərəkət hesab edirdi. Hədisdə deyilir: "Kim dilənməkdən həya edərək, ailəsi üçün zəhmət çəkərək, qonşusuna mehribanlıq göstərərək halal yolla dolanarsa, üzü Qiyamət günü zülmət gecədə bədirlənmiş aya oxşayar və o bu vəziyyətdə ikən rəbbi ilə görüşər" (Vəliyyəddin ət-Təbrizi. Mişkat əl-məsabih // tədqiq edib çapa hazırlayan: Məhəmməd Nasirəddin əl-Əlbani. Dəməşq: "əl-Məktəbə əl-islamiyyə" nəşriyyatı, 1966, II cild, səh. 5207. Hədisi Əbu Hüreyrə rəvayət etmişdir. Həmçinin, biz bu hədisə Beyhəqinin "İmanın dərəcələri" kitabında rast gəlirik. Bax: İmam Əbubəkr əl-Beyhəqi. İmanın dərəcələri // tədqiq edib çapa hazırlayan: Məhəmməd Səid Bəsyuni Zəğlul. Beyrut: "Dar əl-kutub əl-elmiyyə" nəşriyyatı, 1990).

[2] **Fərzi-eyn** (ərəb. "özlüyündə vacib"): bütün müsəlmanların yerinə yetirmələri zəruri sayılan ibadətlərin, əməllərin dindəki statusu – ***tərcüməçinin qeydi***.

[3] Allah Quranda müsəlmanlara əmr edir ki, namaz qıldıqdan sonra yer üzü-

Həmçinin, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* müsəlmanlara əmr etmişdi ki, möhtərəm yollarla ailələrini dolandırmaq üçün bəzi peşə bacarıqlarını inkişaf etdirsinlər[1]. Bu səbəbdən fəqihlər təsdiqləmişlər ki, öz zəhməti hesabına dolana bilən bir insanın bacardığı işdə tənbəllik göstərməsi onun əqli və fiziki sağlamlı-

---

nə dağılışıb ruzi qazansınlar: "Namaz qılınıb qurtardıqdan sonra yer üzünə dağılın və Allahın lütfündən ruzi diləyib axtarın! (Yenə öz işinizə qayıdın!) Və Allahı çox zikr edin ki, nicat tapıb səadətə qovuşasınız!" (əl-Cumuə, 10). Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib: "Halal qazanc hər bir müsəlmana vacibdir" (Hədisi Ənəs ibn Malikə istinadən Süyuti rəvayət edib. Bax: əl-Came əs-səğir, səh. 54). Həmçinin oxuyuruq: "Bir insan öz əlinin zəhmətindən daha yaxşı ruzi qazanmamışdır" (Hədisi Miqdama istinadən İbn Macə rəvayət etmişdir. Bax: İbn Macə. Sünən. Qahirə: "İsa əl-babi əl-hələbi" mətbəəsi, 1952, II cild, səh. 2138.)

Peyğəmbər bildirirdi ki, Allaha təvəkkül etmək zəhmətdən imtina deyildir. Əksinə, hər bir müsəlman əlindən gələni etməli, zəhmət çəkməli, nəhayət, ən yaxşı nəticə üçün Allaha təvəkkül etməlidir. Bu səbəbdən o, öz dəvəsini Allah qoruyar ümidi ilə açıb buraxan bir ərəbə demişdi ki, əvvəlcə, onu bağlasın, daha sonra Allaha təvəkkül etsin.

Fərdin öz ruzisini qazanmasına islamın münasibətini xəlifə Ömər belə izah etmişdi: "Sizdən kimsə boş-bekar oturub belə deməsin: "Allahım mənə ruzi ver." (Bilin ki, boş istəklə) göydən qızıl-gümüş yağmaz. Amma Allah birinin ruzisini verər, başqasınınkını da verməz". Bax: Əli Təntavi, Naci Təntavi. Ömərə dair xəbərlər. Dəməşq: "Dar əl-fikr" nəşriyyatı, 1959, səh. 268.

Kim desə ki, təvəkkül işləməyi, qazanmağı bir kənara qoymaqdır, şəriətə əks getmişdir. Belə ki Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* "Dəvəmi buraxır və təvəkkül edirəm" – deyən şəxsə: "Dəvəni bağla, sonra təvəkkül et", – deyə qarşılıq vermişdi. Bax: Şeybani. Kəsb (Sərəxşinin "Kitab əl-məbsut" kitabı ilə), XXX cild, səh. 249.

[1] İbn Ömər rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib: "Sənət sahibi mömini Allah sevir". Hədisi "əl-Mö`cəm əl-kəbir"də Təbərani, Beyhəqi və Münziri (ət-Tərğib vət-tərhib // araşdırıb çapa hazırlayan: Mustafa Məhəmməd Əmarə. Beyrut: "Dar əl-kutub əl-elmiyyə" nəşriyyatı. 1986, II cild, səh. 524) rəvayət etmişlər.

ğının itirilməsini mümkün edir. Elə ki insan əqli və fiziki sağlamlığından məhrum qaldı, ibadətlərini də icra edə bilmir. O ki qaldı yer üzündə Allah Təalaya xəlifə olmaq vəzifəsinin öhdəsindən gələ![1]

Hər kəsə öz zəhməti və bacarıqları çərçivəsində dolanacağını təmin etmək imkanı verəcək iqtisadi sistem yaratmaq Müsəlman cəmiyyəti üçün fərzi-kifayədir[2]. Bugün mikro-maliyyə münasibətləri iş yerlərinin təşkili sahəsində uğurlara imza atıb. Odur ki mikro-maliyyə sistemi islam ölkələrinin prioritetlərindən sayılmalıdır. Təbii ki, fiziki qüsurları və məhdud bacarıqları səbəbindən özlərini dolandıra bilməyənlər vardır. Belə şəxslərin ehtiyaclarını aradan qaldırmaq məqsədilə vəqf, zəkat və sədəqə qurumları əsasında sosial ianə proqramları təsis etmək mümkündür. Əgər bu işdə həmin qurumların resursları kifayət etməzsə, dövlət işə qarışmalı, əlavə tədbirlər görməlidir.

---

[1] Əlavə məlumat üçün bax: Şeybani. Kəsb (Sərəxşinin "Kitab əl-məbsut" kitabı ilə), XXX cild, səh. 245, 250, 256, 344-387; Əbu Hamid əl-Qəzali. Ehya ülum əd-din. Qahirə: "əl-Məşhəd əl-hüseyni" mətbəəsi, çap ili göstərilməyib, II cild, səh. 60-64; Əbu İshaq əş-Şatibi. Şəriətin ana qaydalarına dair uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət). Qahirə: "Məktəbə ət-ticarət əl-kübra" nəşriyyatı, tarixsiz, II cild, səh. 176-177.

[2] **Fərzi-kifayə** (ərəb. "mümkün vacib"): hər hansı bir ərazidə yaşayan müsəlmanlardan bir nəfər və ya bir qrupun etdiyi təqdirdə yerdə qalanların etməsindən azad olduqları ibadət və əməllərin dindəki statusu (hökmü) – ***tərcüməçinin qeydi***.

# GƏLİRLƏR VƏ RESURSLARIN ƏDALƏTLİ BÖLGÜSÜ

Quran var-dövlətin yalnız varlıların əlində toplanmasını qadağan edir:

"Allah Öz peyğəmbərinə (fəth olunmuş) məmləkətlərin əhalisindən (dinc yolla) verdiyi qənimət Allaha, Peyğəmbərə, (Məhəmməd əleyhissəlama yaxın olan) qohum-əqrəbaya, yetimlərə, yoxsullara və (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara) məxsusdur. Bu ona görədir ki, (həmin mal-dövlət) içərinizdəki zənginlər arasında əldən-ələ dolaşan bir sərvət olmasın (ondan yoxsullar da faydalansın). Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir" (əl-Həşr, 7).

Təbii ki, söhbət resursların ədalətli bölgüsündən gedir (onuncu mənafe). Gəlir və resursların bölgüsündə ifrat fərqlər yoxsulluqdan əziyyət çəkənlərin, gizli bacarıqlarından lazımınca istifadə edə bilməyənlərin şərəf-şanını azaldır. İfrat gəlir fərqlərini aradan qaldıracaq fəal mexanizmin (proqramın) olmamağı qardaşlıq duyğusunu zəiflədir. İslam təkcə mötəbər yollarla yoxsulluğun kökünü kəsməyə can atmır, həm də zəkat, sədəqə və vəqflərlə təmsil olunmuş sosial müavinət proqramlarına xüsusi əhəmiyyət verir. Gəlir və resursların ədalətli bölgüsünü həyata keçirmək üçün yalnız xeyriyyəçilik fəaliyyətinə əsaslanmaq doğru deyildir. Elə isə inkişaf prosesini tezləşdirmək, dünyada qəbul edilmiş digər vasitələrə (təbii ki, islam şəriəti ilə üst-üstə düşən) əl atmaq lazımdır.

# EVLƏNMƏK VƏ STABİL AİLƏ HƏYATI

Cəmiyyətdə qadınlı-kişili hər kəsə nikah yolu ilə ailə qurmaq çox vacibdir (on birinci mənafe)[1]. Evlilikdə əsas məqsəd təkcə cinsi tələbatı ödəmək deyildir, həm də sevgidə, qayğı və lütfkarlıqda münasib müqabil, şərik, həyat yoldaşı seçməkdir. Quranda deyilir:

"Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!" (ər-Rum, 21).

---

[1] Quranda zövcə (cütün tayı) sözü "istifadə edilən", "asılı tərəf" kimi deyil, "ərin yoldaşı, həyat ortağı, dostu" mənasında işlədilir. Buna əsasən, fiqhi ədəbiyyatda evliliyə belə tərif verilib: "Nikah müqaviləsi ortaqlıq, şəriklik müqaviləsidir ki, bu da bərabərlik qaydasına əsaslanır. İzdivac şəriklik deməkdir. Bax: Sərəxsi. Kitab əl-məbsut, V cild, səh. 109. "Ər və arvad mənafelərdə şəriklərdir". Bax: Şihabəddin Əhməd Qərafi. əz-Zəxirə // araşdırıb çapa hazırlayan: Məhəmməd Hücci. Beyrut: "Dar əl-ğərb əl-islami" nəşriyyatı, 1994, XIII cild, səh. 34. **Qeyd**: Mənə bu fiqh mənbələrindən istifadə etməyi dostum, professor Sami Süveyləm təklif edib.

Bu məqsədlə həm ərdən, həm də arvaddan tələb olunur ki, gözəl əxlaq nümayiş etdirsinlər[1], bir-birinin xoşbəxtliyini düşünsünlər, fədakarlıq göstərsinlər[2].

Sevgi və qayğı stabil ailələrin yaranmasına gətirib çıxaracaqdır. Belə ailələr sağlam nəsillər yetişdirməklə yanaşı, həm də cəmiyyətdə inkişaf və stabilliyin zəmanətçisi olacaqdır.

[1] Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib: "Sizin ən yaxşınız əxlaqda ən gözəl olanınızdır". Bax: Buxari. "əl-Came əs-səhih" kitabı, "Ədəb-ərkan" fəsli, "Peyğəmbər əxlaqsız deyildi" bölümü, VIII cild, səh. 15.

[2] Tədqiqatlar göstərir ki, dini öhdəliklərə riayət boşanmaların sayını azaldır, ailə həyatını möhkəmlədir. Bax: Laurence Iannacconne. Introduction to the Economics of Religion, Journal of Economic Literature, September, 1998, pp. 1465-1496; Evelyn Lehrer, Carmel Cheswick. Religion as a Determinant of Marital stability, Demography, 30, 1993, pp. 385-404; Jonathan Gruber. Religious Market Structure, Religious Participation and Outcomes: Is Religion Good for You? NBER Working Paper 11377, 2005, May (Cambridge, MA: National Bureau of Economic Research).

# AİLƏ VƏ SOSİAL HƏMRƏYLİK

Ər və arvad arasında sevgi, əmin-amanlıq və mehribanlıq olsun deyə Quran qadınların hüquqlarını kişilərinki ilə eyni tutmuşdur:

"Boşanan qadınlar üç dəfə (heyz görüb təmizlənincəyə qədər başqa ərə getməyib) gözləməlidirlər. Əgər (o qadınlar) Allaha və qiyamət gününə inanıblarsa, Allahın onların bətnlərində yaratdığını (uşağı) gizlətmək onlara halal olmaz. (Bu gözləmə müddəti içərisində) ərləri barışmaq istəyərlərsə, onları geri almağa (hər kəsdən) daha çox haqlıdırlar. (Kişilərin qadınlar) üzərində şəriətə görə hüquqları olduğu kimi, (qadınların da) onlar (kişilər) üzərində hüquqları vardır. Ancaq kişilər (daha artıq əziyyətə qatlandıqları üçün) onlardan bir dərəcə üstündürlər. Allah yenilməz qüvvət, hikmət sahibidir" (əl-Bəqərə, 228).

Quranda əmr olunur ki, kişilər qadınlarla mehriban və insafla davransınlar:

"Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir! (Qadınlar) açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin (mehrin) bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin. Əgər onlara nifrət etsəniz (dözün). Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeydə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun" (ən-Nisa, 19).

Quranın göstərişlərindən biri də budur ki, kişilər qadınlar qarşısında götürdükləri öhdəliklərə mehribancasına əməl etməlidirlər.

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib:

"Qadınlar və kişilər bütövün parçaları kimidir"[1]

Həmçinin Peyğəmbər Vida xütbəsi zamanı kişilərə səslənmişdi ki, qadınların haqları məsələsində Allahdan qorxsunlar. Çünki qadınlar Allahın onlara əmanətidir[2].

Hədislərdən o da məlum olur ki, zəifliklərindən istifadə edib qadınların haqlarını tapdalamaq kişilərə qadağandır[3]. Qız uşaqlarını diri-diri gömmək, oğlan övladı qız övladdan üstün tutmaq da kişilərə Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* tərəfindən qadağan edilib[4]. Peyğəmbərin kəlamları göstərir ki, qadınlar heç də naqis deyillər və ərlərini tərbiyədə, xoşbəxtlik yaratmada

---

[1] Hədisi Həzrəti Aişəyə, Bəzzar və Ənəs ibn Malikə istinadən İmam Əhməd, Əbu Davud və Tirmizi rəvayət etmişlər. Bax: Süyuti. əl-Came əs-səğir, I cild, səh. 102.

[2] Cabir ibn Abdullah rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Vida xütbəsində deyibmiş: "Qadınlara görə Allahdan qorxun! Çünki siz onları Allahdan əmanət almışsınız, Allahın sözləri ilə onları özünüzə halal bilmişsiniz" (Müslim. "Səhih" kitabı, "Həcc" fəsli, "Peyğəmbərin həcci" bölümü, II cild, səh. 889, hədis № 147). Həmçinin, hədisi İbn Macə, Əbu Davud və İmam Əhməd rəvayət etmişlər.

[3] Hədis belədir: "Sizə iki zəifin – yetim və qadınların haqlarını tapdamağı qadağan edirəm". Hədisi Əbu Hüreyrəyə istinadən Hakim rəvayət etmişdir. Bax: Hakim. "Müstədrək" kitabı, "İman" fəsli, I cild, səh. 63. Hədis İmam Müslimin səhihlik şərtlərinə görə səhihdir.

[4] İbn Abbas *(Allah ondan razı qalsın!)* rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib: "Kimin qız övladı varsa və onu diri-diri gömməzsə, ona alçaq nəzərlərlə baxmazsa, oğlan övladını ondan üstün tutmazsa, Allah onu cənnətə daxil edər". Hədisi Əbu Davud və Hakim rəvayət etmişdir. Bax: Münziri. ət-Tərğib vət-tərhib // araşdırıb çapa hazırlayan: Mustafa Məhəmməd Əmarə. Beyrut: "Dar əl-kutub əl-elmiyyə" nəşriyyatı. 1986, III cild, səh. 86, hədis № 19.

xüsusi rola sahibdirlər. Bəlkə də, II Raşidi xəlifə Həzrəti Öməri aşağıdakı sözləri deməyə sövq edən elə budur:

"Cahiliyyət dövründə qadınları bir heç hesab edirdik. Elə ki islam gəldi, elə ki Allah onları (Quranda) yad etdi, bildik ki, onların bizim üzərimizdə haqları vardır"[1].

Fikrimizcə, gözəl əxlaq, ər və arvad arasında xoş münasibət, uşaqlara sevgi və qayğı kifayətdir ki, ailə möhkəmlənsin, sosial həmrəylik yaransın. Ailə və sosial həmrəylik zəruri sayılan on ikinci tələbatdır (mənafedir).

[1] Məhəmməd ibn İsmayıl əl-Buxari. əl-Came əs-səhih, "Geyim" fəsli, Qahirə: "Məhəmməd Əli Səbih" mətbəəsi, tarixsiz, IV cild, səh. 281, hədis № 735.

# CİNAYƏTLƏRİN MƏHDUDLAŞDIRILMASI

Toxunduğumuz on bir ehtiyac təmin edilərsə, on üçüncü tələbat da öz-özünə təmin olunacaqdır. Söhbət cinayət və münaqişələrin məhdudlaşdırılmasından gedir.

# SAĞLAM DÜŞÜNMƏYİ TƏMİN EDƏN MÜVAFİQ ŞƏRAİTİN YARADILMASI VƏ XOŞBƏXTLİK

Əgər bu on üç tələbat ödənərsə, on dördüncü ehtiyacın təmini üçün əlverişli mühit formalaşar. Biz düşünmədə, mühakimə və fəhmdə sağlam şəraitin yaradılmasından danışırıq. Bütün bu tələbatların ödənilməsi təkcə cana, ağıla, nəsil və var-dövlətə deyil, həm də dinə müsbət təsir edəcəkdir. Dinə müsbət təsir o deməkdir ki, onu düzgün başa düşmək və tətbiq etmək mümkün olacaqdır. Bu da öz növbəsində cəmiyyətin bütün sahələrində, o cümlədən iqtisadiyyat və siyasətdə davamlı inkişafa rəvac verəcəkdir.

# DİNİN, ZƏKANIN, NƏSİL VƏ MÜLKİYYƏTİN (VAR-DÖVLƏTİN) QORUNMASI

Nəfsi tərbiyə etməklə şəriətin başlıca məqsədini (insanlara fayda verib, zərəri onlardan uzaqlaşdırmaq) həyata keçirmək mümkündür. Bu zaman digər dörd mənafenin də qorunması zəruridir. Söhbət dinin, ağılın, nəsil və var-dövlətin qorunmasından gedir. Qeyd edək ki, bu dörd mənafenin hər biri nəfsin tərbiyə edilməsində rol oynayır. Əgər təhlükələrin artdığı bu dövrdə sözügedən dörd mənafe qorunmazsa, indiki və gələcək nəsillərin xoşbəxtliyini istənilən formada təmin etmək qeyri-mümkün hala gələcəkdir.

# İMANIN MÖHKƏMLƏNDİRİLMƏSİ
## (CƏDVƏL 3)

Bəlkə də, oxucunun ağlına gələcək ilk sual budur ki, nə üçün sıralamada "din" "can"dan sonradır? Axı bu günün dünyasında məhz dünyəvi, liberal və materialist cərəyanlar söz sahibinə çevrilib. Din bu qədərmi əhəmiyyətlidir?

## DİNİ DÜNYAGÖRÜŞÜ

Hər bir halda mübahisə doğurmayan həqiqət budur ki, bəşəriyyət davamlı inkişaf yolu keçmişdir. Bu inkişaf insanların islah edilməsi və xoşbəxtliyini zəruri edir. Dini dünyagörüşü insan oğlunu islah məqsədilə bütün imkanlardan mümkün qədər istifadə edir. Odur ki dində insanın bütün maddi və mənəvi tələbatlarını təmin etmək zəruri sayılır. Bu səbəbdən dini dünyagörüşündə insan həyatına məna və məqsədyönlülük kəsb etdirilir; insan fəaliyyəti düzgün yerə istiqamətləndirilir; davranışlarını, həyat tərzlərini, zövq və seçimlərini, həm Allaha, həm özlərinə, həm başqalarına, həm də mülkiyyətlərinə olan münasibətlərini dəyişməklə fərdlər daha üstün xüsusiyyətlərə malik kollektiv halına gətirilir. Bu haqda Allah buyurur:

"(Günahlardan) təmizlənən kimsə isə nicat tapacaqdır.

O kimsə ki, Rəbbinin adını zikr edib namaz qılar!" (əl-Ə`la, 14-15);

"Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır!

Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır" (əş-Şəms, 9-10).

Bütün müsəlman alimləri nəfs tərbiyəsinin əhəmiyyətini vurğulamış, bu işdə dinin rolunu yüksək qiymətləndirmişlər.

Tarixə dair tədqiqatları ilə tanınan Arnold Toynbe və Dyurant haqlı olaraq bu nəticəyə gəlmişdilər ki, dinlər olmadan əxlaqi yüksəliş və sosial həmrəylik mümkün deyildir. Arnold Toynbe yazırdı:

"Dinlər öz mənsublarına sosial iltizam (cəmiyyətin möhkəmliyi üçün hər kəsin müəyyən öhdəliklərə riayət etməsi) hissi aşılayır, onları bu öhdəlikləri pozmamağa çağırır... Bəşəri qardaşlıq teist atalıq (Adəmin hamının atası olmağı) əsasında qurulmuşdur. Digər tərəfdən, "bəşəriyyət ailəsinin müqəddəs atası – Adəm" ideyasını hesaba daxil etməmək insanlıq hissinə əsaslanan, insanlara eyni dərəcədə faydalı olan alternativ münasibətlər sisteminin tapılmasını qeyri-mümkün edir"[1].

Həmçinin, həmmüəlliflər Vill Dyurant və Ariel Dyurant "Tarixin dərsləri" adlı qiymətli kitabda göstərmişdilər ki, "Tarixdə dinin köməyi olmadan əxlaqi həyat tərzini müvəffəqiyyətlə qoruyub saxlaya bilən cəmiyyət faktına rast gəlinmir"[2].

---

[1] Toynbee. Somervell`s abridgement, 1958, vol. 2, p. 380, vol. 1, pp. 495-96.
[2] Will and Ariel Durants. The Lessons of History, 1968, p. 51.


İmanın möhkəmləndirilməsi
Dünyagörüşü (tövhid, varislik, risalət, qardaşlıq)
Öyrənmə (fiziki və mənəvi)
Münasib təşviq mexanizmi
Dəyərlər (davranış qaydaları)
Dövlətin rolu
Ətraf mühitdən düzgün istifadə, ailədaxili münasibətlərin yaxşılaşması, ictimai həmrəylik, siyasi stabillik
Ədalətli bölgü (bəşəri qardaşlıq)
Yoxsulluğun ləğvi, tələbatların təmini (hər kəs üçün), iş imkanları, azad iş şəraiti
Ədalət, azadlıq, can, var-dövlət və ləyaqətin qorunması, dürüstlük, bütün sosial, iqtisadi və siyasi vəzifələrin icrası, səbir, uzaqgörənlik, qarşılıqlı inam və qayğı
Ədalətli hakimiyyət
Canı, ağlı, nəsil və var-dövləti qoruma
Bəşəriyyətin xoşbəxtliyi

**Cədvəl 3**

# DƏYƏRLƏR

İndiyədək deyilənlər bizdə belə bir sual yaradır: Nə üçün dini əsaslar olmadan əxlaqi yüksəliş və sosial həmrəylik mümkün deyildir? Sualın cavabı budur ki, əxlaqi yüksəlişin iki mühüm şərti vardır:

a) Əksəriyyət tərəfindən qeydsiz-şərsiz qəbul edilmiş prioritet dəyərlərin, yaxud davranış qaydalarının mövcudluğu;

b) Hər kəsin həmin dəyər və qaydaları gözləməsi; bu dəyər və qaydalara əxlaqi cəhətdən riayətin hər kəsə aşılanması; onları pozanların qınanması.

Başqa bir sual ortaya çıxır: Qeydsiz-şərtsiz hamı tərəfindən qəbul edilib riayət olunan dəyərləri necə təsis etmək mümkündür? Görəsən, bəzi dünyəvi-modernist filosof və siyasətşünasların təklif etdikləri "ictimai müqavilə" (Social Contract) konsepsiyası bu cür dəyərlərin müəyyənləşdirilməsində rol oynaya bilərmi? Cavabımız müsbətdir, amma bir şərtlə; o şərtlə ki, ictimai müqavilənin necəliyi ilə əlaqəli müzakirələrin iştirakçıları sosial, iqtisadi və düşüncə cəhətdən eyni olsunlar. Bu eyniyyət imkan verəcəkdir ki, tələb olunan qaydaların hazırlanmasında hamı bərabər şəkildə iştirak etsin. Təbii ki, belə eyniyyət qeyri-mümkündür, odur ki varlılar və güclülər qərarlara təsir edəcəklər. Nəticədə, onların maraqlarına gizlicə xidmət edən qaydalar qoyulacaqdır. Bununla da, həmin qaydaların hamı tərəfindən qəbulu baş tutmayacaqdır. Bu səbəbdən zəruridir ki, sözügedən vəzifə (iş) həm biliyi, professionallığı və bitərəfliyi ilə seçilən, həm hər kəsin zəif və güclü cəhətlərini bilən, onlara münasibətdə ədalətli olan, həm də ayrı-seçkilik etmədən bütün

bəşəriyyətin xoşbəxtliyini arzulayan kəsə həvalə edilsin. Həmçinin, şərtdir ki, həmin kəs mövcud qaydaların nə dərəcədə səmərəli olub-olmadığına yaxşı bələd olsun, hazırlanacaq normaların uzunmüddətli təsiri və nəticələrini tam dəqiqliyi ilə nəzərə alsın. Belə bir funksiyanı, təbii ki, ancaq Allah Təala yerinə yetirə bilər! Çünki bu kainatı və insanları O yaradıb və O, hər şeyi bilir!

Allah Təala bu vəzifəni icra etmişdir. İslam dünyagörüşünə görə, Allah bütün insanlara müxtəlif dövrlərdə peyğəmbərlər, o cümlədən, Həzrəti İbrahim, Musa, İsa və Məhəmməd *(Onlara Allahın xeyir-duası və salamı olsun!)* vasitəsilə doğru yola çağıran təlimlər göndərmişdir. Bu üzdən bütün səmavi dinlərin dünyaya baxışında, əxlaq sistemində oxşarlıq vardır; əsrlər boyu bir din əvvəlki dini tamamlamış və təkmilləşdirmişdir. İnsandan tələb olunur ki, onu yaratmış Allah tərəfindən göndərilən bu dəyərlərə səmimiyyətlə riayət etsin. Bu müvəqqəti dünyada ona tapşırılmış vəzifə də elə budur. Əgər insanlar məhdud resurslardan düzgün istifadə edərlərsə, bir-birləri ilə sözügedən dəyərlər əsasında davranarlarsa, təkcə bəşəriyyət xoşbəxt olmayacaq, həm də ətraf mühit, heyvanlar, bitki və həşəratlar mühafizə altına alınacaqdır.

Şadvikin dediyi kimi, sosial əxlaqa riayət "...müzakirəyə bağlı və hamı tərəfindən qəbul edilmiş aksiomatik meyarlara əsaslanmalıdır... Bəşər tarixi boyu ictimai əxlaqa riayət dindən ayrı olmamışdır. Bəzi istisnalar olsa da, bu, kiçik cəmiyyətlər üçün xarakterikdir"[1].

Bernard Uilyams haqlı olaraq demişdi:

"Əxlaq iltizamı filosofların kəşfi deyildir"[2].

---

[1] Schadwick, 1975, pp. 229 and 234.

[2] Bernard Williams. Ethics and the Limits of Philosophy, Cambridge, MA: Harvard University Press, 1985, p. 174.

# MÜNASİB TƏŞVİQ MEXANİZMİ

Qeydsiz-şərtsiz qəbul olunacaq dəyərlər təsis edilə bilər, amma hər kəs bu dəyərlərə riayət edəcəkdirmi? Buna nə zəmanət verir? Axı bu dəyərlərə riayət tələb edir ki, fərd öz mənafeyindən müəyyən dərəcədə vaz keçsin. Görəsən, inanclar (əqidə) insanları sözügedən dəyərlərə riayətə sövq edə bilərmi? Şəxsi maraqlardan vaz keçməyi tələb edən sosial, siyasi və iqtisadi öhdəlikləri icrada inanclar insanları həvəsləndirə bilərmi? Bəli, bu mümkündür. Çünki inanc sistemində insanın mənafeyi daha geniş "diapazon"da – dünya və axirət çərçivəsində nəzərdən keçirilir. Bir insan bu dünyada yalnız öz marağını güdə, şəxsi mənafeyini əsas tuta, təkcə özünü düşünüb başqa insanlar qarşısında daşıdığı öhdəlikləri yerinə yetirməyə bilər. Amma bu, axirətdə onun xeyrinə olmayacaqdır. Deməli, onun axirətdəki taleyi bütün bu öhdəliklərə necə riayət etməyindən asılıdır.

Mənafe anlayışına geniş yanaşma, Allah qarşısında bəndənin məsuliyyəti, axirət mükafatı və cəzası – bütün bunlar fərdləri və cəmiyyətləri öhdəliklərə düzgün riayətə həvəsləndirir. Ola bilsin ki, bu halda şəxsi maraqlara azmüddətliliyinə zərər gəlsin, amma əbədi mənafe hər şeydən vacibdir.

Əbədi axirət xoşbəxtliyini müvəqqəti dünyəvi maraqlara qurban vermək zəlalət və faciədir. Maarifçilik hərəkatının do-

ğurduğu dünyəviliklə (sekulyarizm) məhdudlaşan ənənəvi iqtisadiyyat uzunmüddətli mənafedə öz əksini tapan bu yanaşmadan xəbərsizdir. Odur ki ənənəvi iqtisadiyyat başqalarının xoşbəxtliyi naminə insanları fədakarlığa sövq edəcək mexanizmə sahib deyildir.

# TƏHSİL

Hər nə olursa-olsun, dəyərlər və təşviq mexanizmi, insanların bundan xəbəri yoxdursa, güclü baza rolunu oynaya bilmir. Bu səbəbdən islam tələb edir ki, müsəlmanlar təkcə dini dünyagörüşünə, din dəyərlərinə deyil, həm də müasir elmi-texniki sahələrə düzgün bələd olsunlar. Bütün bunlar imkan verəcəkdir ki, İslam ölkələrinin vəziyyəti yaxşılaşsın, müsəlmanlar üçün iş imkanları yaransın, müstəqil fəaliyyət sahələri inkişaf etsin. Belə olan halda onlar öz nüfuzlarını geri qaytaracaq, daxili problemlərini özləri həll edəcəklər. Nəticədə, müsəlman cəmiyyəti sürətlə inkişaf edəcək, yoxsulluğa, gəlir və resurs bölgüsündəki bərabərsizliyə son qoyulacaqdır. Əgər maliyyə sistemində islahatlar aparılarsa, əhəmiyyətli dərəcədə inkişaf baş verəcəkdir. Bununla da, təkmilləşdirilmiş maliyyə sistemi islam maliyyə formaları əsasında cəmiyyətdəki əsas sektorları maliyyələşdirmək imkanına sahib olacaqdır[1].

---

[1] Ətraflı məlumat üçün bax: M. Umar Chapra. The Case against Interest: Is it Compelling? In Thunderbird International Business Review, 49/2, March/April, 2007, pp. 161-186; M. Umar Chapra. Challenges Facing The Islamic Financial Industry, in M Kabir Hassan and Merwyn Lewis (eds.) (2007), Handbook of Islamic Banking (Cheltenham, UK: Edward Elgar), pp. 325-357.

# XEYİRXAHLIQ, AİLƏDAXİLİ VƏ SOSİAL HƏMRƏYLİK

İslam xeyirxahlığa rəvac verən, ailədaxili və sosial həmrəyliyin güclənməsinə, fərdlərin əməkdaşlığına imkan yaradan mühitin formalaşdırılmasında maraqlıdır. Belə bir mühit olmadığı təqdirdə dəyərlər və təşviq mexanizmi zəifləyir. Camaat namazı, Ramazan orucu, zəkat, həcc, yaxşılığa çağırıb, pis işlərdən çəkindirmək vəzifəsi – bütün bunlar sözügedən mühitin formalaşdırılmasında islam mexanizminin bir hissəsini təşkil edir.

Belə bir mühitdə zəruri insani keyfiyyətlər möhkəmlənir, sosial-bəşəri məqsədlərə əngəl mənfi davranış və hallar azalır. Məsələn, insanları sadə həyat sürməyə həvəsləndirməklə bədxərcliyin, ifrat istehlakın qarşısını almaq, bununla da, resurslara olan tələbatın gündən-günə artmasını əngəlləmək mümkündür. Nəticədə, resurslara qənaət olunacaq, sosial bərabərlik qorunacaq, tədarük və sərmayə imkanları yaranacaq, nəhayət, iş təminatı yaxşılaşacaqdır. Xüsusi iqtisadiyyata dair ədəbiyyatlarda məlum dəyərlər və sözügedən mühitdən ətraflı bəhs etməmək xüsusi və sosial iqtisadiyyat sahələri arasında dərin uçurum yaratmışdır. Bəşəriyyətin inkişafında qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün insanların, ailə və şirkətlərin üstünlük verdiyi məsələlərlə, zövqlər və bazar təmayülləri ilə əlaqəli ciddi müzakirələrə sosial iqtisadiyyatda yer verilmədikcə həmin məqsədlər kağız üzərində qalacaqdır. Xüsusi iqtisadiyyatda fərdlərin mənafeyi əsas götürülür. Odur ki var-dövlətin artırılmasına, ehtiyacların təmininə xüsusi diqqət ayrılır. Deməli, sosial iqtisadiyyat

qarşıya qoyulmuş humanist məqsədləri reallaşdırmaq üçün xüsusi iqtisadiyyata möhtacdır.

XVII əsrdə Maarifçilik hərəkatı materialist dünyagörüşünü formalaşdırmaqla Qərbdə xristianlığın sosial rolunu məhdudlaşdırmağa cəhd göstərdi. Amma istənilən nəticə hasil olmadı, çünki xristian dəyərləri cəmiyyətdə özünə möhkəm yer etmişdi. Atılan addımların qeyri-məqbul səmərəsi ciddi etirazlara səbəb oldu. Nəticədə, dünyanın müxtəlif yerlərində dini dünyagörüşünə yenidən qayıtmaq təmayülü özünü göstərdi[1]. "Əxlaqi bünövrəsizlik mədəniyyətin tənəzzülünə aparıb çıxarır. Belə olan halda təbiətin ən güclü və fəal qüvvələri belə, məsələyə müdaxilə edə bilmir"[2] – deyən və iddiasında haqlı çıxan Şveyzer Nobel mükafatına layiq görüldü. O hesab edirdi ki, "Davranışlara əxlaqi cəhətdən hakim olmaq təbiətə ağalıq etməkdən daha mühümdür"[3].

Harvard universitetinin professoru Benyamin Fridman bu yaxınlarda nəşr olunmuş əsərlərinin birində yazırdı ki, əxlaqi inkişaf və iqtisadi tərəqqi biri digərini gücləndirən iki ələ oxşayır[4].

Qərbli müəlliflərdən hələ əsrlər əvvəl Qəzali, Şatibi və digər müsəlman alimləri bəşəriyyətin xoşbəxtliyində inancın əhəmiyyətindən söz açmışdılar.

---

[1] Bu günlərdə "Religion in Cotemporary" məcmuəsinin naşirləri etiraf etmişlər ki, iki yüz illik din düşmənçiliyi dövrünün sonu görünür. Bax: John Fulton and Peter Gee. Religion and Contemporary Europe (Lampeter, UK: The Edwin Press), 2004, p. 194.

[2] Schweitzer, 1949, p. xii.

[3] Yenə orada, səh. 22-23, 38-39, 91.

[4] Benjamin Friedman. Moral Consequences of Economic Growth (New York: Konpf), 2005.

Bu məqamda belə bir sual yaranır: İnancı məsələyə daxil etmək insanın azadlığını məhdudlaşdırmır ki? Məsələ heç də bizim təsəvvür etdiyimiz kimi deyil. Belə ki insanlar azadlıqlarını qoruyub saxlamaq hüququna sahibdirlər. İstəsələr inancın məhdudlaşdırmalarını qəbul edər, istəməsələr etməzlər. Quranın bir sıra ayələrində seçim azadlığı haqda danışılır. Bir ayədə oxuyuruq:

"Və de: "Haqq rəbbinizdəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın (kafir olsun)..." (əl-Kəhf, 29).

İnsanlar inanc deyilən şeyi qəbul etməyə bilərlər. Amma bu bir həqiqəti dəyişmir: yer üzündə mütləq azadlıq deyilən şey yoxdur! Bütün cəmiyyətlərdə azadlığı məhdudlaşdıran davranış qaydaları mövcuddur. Məsələn, svetoforun qırmızı işığı fərdin hərəkətini (azadlığını) məhdudlaşdırır. Amma heç kəs buna etiraz etmir, çünki bilirlər ki, bu hamının mənafeyi üçündür; yol hərəkəti qaydaları insan həyatını qorumaq, bununla da, onun xoşbəxtliyini təmin etmək məqsədi daşıyır.

# DÖVLƏT HAKİMİYYƏTİ

İnanc bəzən əlahiddə şəkildə bəşəriyyəti xoşbəxt edə bilmir. Fərz edək ki, bütün insanlar Allaha iman gətirmiş, axirət məsuliyyətini hiss etmiş, əxlaqa yiyələnmişlər. Amma əxlaqlı olmaq resurslardan istifadənin sosial prioritetlərindən xəbərdar olmaq mənasına gəlmir. Bu hal zəruri edir ki, dövlət öz tamamlama funksiyasını yerinə yetirsin. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

"Allah Quranla çağırmadığını hakimiyyətlə çağırır"[1].

Quran ancaq dəyərlər təqdim edir, onları həyata keçirmək isə dövlətin işidir. Elə isə ədaləti və sosial rifahı təmin etmək dövlətin hüquqi-əxlaqi borcudur. Hədislərin birində deyilir:

"Allah tərəfindən rəiyyətə rəhbər qoyulmuş elə bəndə yoxdur ki, rəiyyətinə nəsihət edib, onlarla gözəl davrandığı halda cənnətin qoxusunu almasın"[2].

---

[1] Əbülhəsən Əli əl-Mavərdi. Dünya və dinin ədəb-ərkanı (Ədəb əd-dünya vəd-din) / çapa hazırlayan: Mustafa əs-Səqa. Qahirə: "Mustafa əl-babi əl-hələbi" nəşriyyatı, 1955, səh. 121. Həmçinin İbn Aşur yazırdı: "İslamın məqsədlərindən biri budur ki, şəriət ümmətin nəzərində nüfuzlu quruma çevrilsin, hamı tərəfindən hörməti qorunub-saxlansın. Çünki o, nüfuza və ehtirama sahib olmazsa, heç kəsə faydası toxunmaz". Bax: Məhəmməd ət-Tahir ibn Aşur. İslam şəriətinin məqsədləri // araşdıran: Məhəmməd Tahir Misavi. İordaniya: "Dar ən-nəfais" nəşriyyatı, 2001, səh. 376.

[2] Hədisi Mə`qəl ibn Yəsara istinadən Buxari rəvayət etmişdir. Bax: Məhəmməd ibn İsmayıl əl-Buxari. əl-Came əs-səhih, "Hökmlər" fəsli, "Kim rəiyyətə çoban qoyulduqdan sonra nəsihət etməzsə" bölümü, Qahirə: "Məhəmməd Əli Səbih" mətbəəsi, tarixsiz, IX cild, səh. 80.

Klassik və müasir müəlliflərin kitablarında bu haqda çox yazılıb. Məsələn, İmam Həsən əl-Bənna xüsusilə qeyd edirdi ki, "hökumət bütövlükdə sosial islahatların nüvəsini əmələ gətirir. Əgər onun halı korlanarsa, hər şey məhv olar; yox, vəziyyəti yaxşıdırsa, hər şey düzələr"[1].

Hər bir halda, dövlət bu funksiyanı elə icra etməlidir ki, müstəbidlik meydana çıxmasın. Çünki fərdin davranışlarını normadan artıq məhdudlaşdırdıqda fərdi və kollektiv təşəbbüslər, yaradıcılıq meylləri zəifləyir. Bu səbəbdən zəruridir ki, dövlətə istiqamət verən fəal qaydalar və tarazlaşdırıcı meyarlar işlənib hazırlansın. Bir çox qurum, o cümlədən parlament, məhkəmə, azad mətbuat, qanunvericilik aktları, sağlam mövqeyi ilə seçilən orqanlar bu meyarlara riayət etməlidir. Cəmiyyətin əxlaqi bazasını yaradıb, əlverişli mühit formalaşdırmaq üçün bütün bu meyarlar sağlam maddi təşviqatla əlaqələndirilməlidir. Habelə, gözəl əxlaq aşılamaqla, maarifləndirmə işi aparmaqla öz istəklərinə uyğun olaraq insanları yaxşı işlər görməyə, pis davranışlardan imtinaya həvəsləndirmək mümkündür.

İnsanlar öz istəkləri ilə islam dəyərlərini tətbiq etməyə həvəsləndirildikcə, ədalətli sosial-iqtisadi sistem yaratmada ictimai, iqtisadi, maliyyə və hüquq qurumlarının imkanları artdıqca davranış normalarını qəbul etdirib, sözügedən məqsədləri həyata keçirmədə dövlətin yükü yüngülləşəcəkdir. Həmçinin, siyasi rəhbərlik cəmiyyət qarşında nə qədər çox məsuliyyət hiss edərsə, söz azadlığına imkan yaradılarsa, zülm və korrupsiya ilə mübarizədə qanunverici orqanlar, məhkəmə və media uğur

[1] İmam Həsən əl-Bənna. Risalələr, "İqtisadi sistem əsasında daxili problemlərimiz" fəsli. İsgəndəriyyə: "Dar əd-dəvət" nəşriyyatı, 1989, səh. 255.

qazanarsa, islam dövləti də öz vəzifəsinin öhdəsindən bir o qədər asanlıqla gələcəkdir. Digər cəmiyyətlərdə sosial maraqları qorumanın elə mexanizmləri vardır ki, faydalılığı və səmərəliliyi məlum olarsa, islam dövlətlərində istifadəsi mümkündür.

# İNTELLEKTİN İNKİŞAF ETDİRİLMƏSİ
## (CƏDVƏL 4)

Düşünmək yalnız insanlara xasdır. İnsan davamlı şəkildə intellektini inkişaf etdirməlidir ki, bacarıqları təkmilləşib, bilik dairəsi genişlənsin. Nəticə etibarı ilə, bu onun xoşbəxtliyini təmin edə bilər. İmam Qəzali hesab edirdi ki, "ağıl elmin qaynağı, çeşməsi və əsasıdır. Ağacdan meyvə, günəşdən işıq, gözdən görmə necə hasil olursa, elm də ağıldan o cür zühur edir. Dünya və axirət xoşbəxtliyinin vasitəsi sayılan bir şey nə üçün də şərəfli olmasın?!"[1]

İnkişafın islam modelini həyata keçirərkən əsasən əqidəyə (etiqada) diqqət yetirmək o demək deyildir ki, ağıl az əhəmiyyətlidir. Belə ki vəhy və məntiqi idrak qəlb və ağılı xatırladır. Həm vəhy (qəlb, könül), həm də ağıl (məntiqi təfəkkür) insan həyatında mühüm yerə sahibdir. Maksimum dərəcədə xoşbəxt olmaq istəyiriksə, hər ikisinə ehtiyacımız vardır.

Etiqad (inanc) ağıl üçün düzgün istiqamətləri müəyyən edir. İnanc olmadıqda, ağıl bəzən saxtakarlığa, başqalarını istismara, kütləvi qırğın silahlarının yaradılmasına can atır. Ağıl bəşəriyyətə xidmətdə inancın yolgöstərənliyinə möhtac olduğu kimi, inanc da öz canlılığını, fəallığını qorumaq, daim dəyişilən sosial, iqtisadi və düşüncə mühiti ilə ayaqlaşmaq, inkişafa rəvac verən mexanizmləri təkmilləşdirmək, öz məqsədlərini həyata

---

[1] Əbu Hamid əl-Qəzali. Ehya ülum əd-din. Qahirə: "əl-Məşhəd əl-hüseyni" mətbəəsi, çap ili göstərilməyib, I cild, səh. 83.

keçirmək üçün ağıla möhtacdır. Deməli, həm iman, həm də ağıl çox mühümdür, biri digərinə əsaslanır. Ağıl və vəhydən düzgün istifadə həqiqi xoşbəxtlik üçün zəruri sayılan bilik və mexanizmlərin təkmilləşdirilməsinə imkan yaradır. Onlardan hər hansı birini kənara atmaq tənəzzüllə nəticələnəcəkdir. Odur ki Quran düşünməyə, məntiqi mühakimə yürütməyə çağırır:

"Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər vardır.

O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlayar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!" (Ali-İmran, 190-191);

"Onun (Quranın) haqq olduğu onlara (müşriklərə) bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında), həm də onların öz daxilində mütləq göstərəcəyik. (Ya Peyğəmbər!) Məgər Rəbbinin hər şeyə şahid olması (sənin dediklərinin doğruluğuna) kifayət deyilmi?!" (Fussilət, 53).

Bu məsələ tarix boyu müsəlman alimləri və mütəfəkkirlərini düşündürmüşdür. Məsələn, Şeyxülislam İbn Teymiyyə (vəfat edib – hicri 728 / miladi 1328) bildirirdi ki, müsəlmanların öz inancları, ibadət və dəyərlərində Quran və Sünnəyə istinad etmələri "sağlam ağıla zidd deyildir. O şey ki, sağlam ağıla ziddir, deməli, puçdur (əsası yoxdur)"[1].

[1] İbn Teymiyyə yazırdı: "Müsəlmanlar dini: əqidəni, ibadətləri və sairi Allahın kitabından, peyğəmbərinin sünnəsindən, ümmətin keçmiş nəsilləri və alimlərinin həmrəy olduğu məsələlərdən əxz edirlər ki, bu da sağlam əqlə

İbn Teymiyyə deyirdi ki, insanlar bəzən ayə və hədisləri düzgün başa düşmürlər. Çünki bu ayə və hədislərdə ya bəzilərinin başa düşə bilmədiyi, ya da səhv başa düşdükləri sözlər, ifadələr, cümlələr vardır. Elə isə problem Quran və Sünnədə deyil, insanların özündədir[1].

XX əsrin görkəmli müsəlman alimi, "Kral Feysəl" mükafatı laureatı Şeyx Mustafa Zərqa yazırdı:

"İslam alimləri yekdilliklə təsdiqləmişlər ki, islam əqidəsi və ehkamında ağıla zidd heç nə yoxdur"[2].

---

zidd deyildir. O şey ki, sağlam ağıla ziddir, deməli, puçdur (batildir)". Bax: İbn Teymiyyə. Fitvalar toplusu / araşdırıb çapa hazırlayan: Əbdürrəhman əl-Əsimi. Ər-Riyad: "Mətabe ər-Riyad" nəşriyyatı, 1963, XI cild, səh. 490.

[1] "...orada (ayələrdə) elə sözlər vardır ki, bəzi insanlar ya onu başa düşmür, ya da səhv başa düşürlər. Elə isə bəla Quran və Sünnədə deyil, insanlardadır". Bax: İbn Teymiyyə. Fitvalar toplusu / araşdırıb çapa hazırlayan: Əbdürrəhman əl-Əsimi. Ər-Riyad: "Mətabe ər-Riyad" nəşriyyatı, 1963, XI cild, səh. 490.

[2] Mustafa Əhməd Zərqa. Fiqh və ağıl: yeni baxış. Dəməşq: "Dar əl-qələm" nəşriyyatı, 1996, səh. 14.

# DİNİ MƏTNLƏRİN "MƏQASİD" TƏLİMİ ƏSASINDA İZAH EDİLMƏSİ

Deyilənlərdən məlum olur ki, əqidə və ağıl bir-birinə əsaslanır. Deməli, onlardan elə istifadə etmək lazımdır ki, bir-birini təsdiqləsinlər, şəriətin "məqsəd"lərini reallaşdırmada pay sahibi olsunlar. Bəzən sağlam əqli mühakimələr olmadan ictihad etmək, dini mətnlərin (ayə və hədislərin) fərqli izahlarını və fiqhi hökmləri obyektiv şəkildə təhlil etmək çətin olur. Təbii ki, bu, şəriətin məqsədlərinin həyata keçirilməsinə təsir göstərir.

Şəriətin məqsədləri ilə üst-üstə düşməyən izah və fitvalar çox vaxt dağıdıcı nəticələr doğurur; insan həyatının xoşbəxtliyinə xələl gəlir. Bu üzdən onları ya dəyişdirmək, ya da tamamilə ləğv etmək zərurəti yaranır. Bəzi məşhur alimlər bu məsələdə eyni mövqedən çıxış edirlər.

Məsələn, İmamülhərəmeyn Əbülməali əl-Cüveyni (vəfat edib – hicri 478 / miladi 1085) deyirdi:

"Kim qadağa və əmrlərdəki məqsədləri başa düşməzsə, dinin nə üçün göndərildiyindən xəbəri yoxdur (və ya: fitva verməyi bacarmaz)"[1].

Şeyx Məhəmməd Tahir ibn Aşur da göstərirdi ki, "Fiqhin əksər məsələləri şəriətə və məqsədlərinə xidmət etmir[2]. Bu

---

[1] Əbdülməlik əl-Cüveyni. Zülmətin qaranlığında millətlərin dadına çatma (Giyas əl-ümən fi iltiyas əz-zələm) / çapa hazırlayan: Əbdüləzim əd-Deyb. Qatar: Dini İşlər Nazirliyinin nəşrləri, hicri 1400, I cild, səh. 295.

[2] Bu, isbatı, demək olar ki, qeyri-mümkün sayılan iddiadır. İslam fiqhinin

məsələlər Şəriət sahibinin (Allah və ya Peyğəmbərin) sözləri əsasında ictihad edənlərin subyektiv görüşlərini əks etdirir..."[1].

Bunun təəssüf doğuran nəticəsi budur ki, "din elmlərinin çoxu, o cümlədən fiqhin əsasları elmi (fiqh üsulu) əvvəlki dövrlərdə sahib olduğu ruhu qoruyub saxlaya bilməyib. Həmin ruhu yenidən bərpa etmək elmi-dini intibahın zəruri şərtlərindəndir"[2].

Dini mətnlərin mücərrəd-hərfi mənaları əvəzinə onlardakı məqsədlərə diqqət yetirmək nəinki islam təlimlərinin həqiqi gözəlliyini qoruyub saxlamağa kömək edəcək, həm də fikir ayrılıqlarının, dözümsüzlüyün, ifrat-zahiriliyin aradan qaldırıl-

---

əksər hissəsini dinin məqsədlərindən uzaq hökm və yanaşmalar kimi xarakterizə etmək islamın hüquq institutu ətrafında ciddi şübhələrin yaranmasına zəmin hazırlaya bilər. Nəzərə almaq lazımdır ki, fitvalar hər nə qədər fəqihlərin şəxsi yanaşmasını əks etdirsə də, arqument baxımından Quran və Sünnəyə əsaslanmış, verildiyi dövrə uyğun olmuşdur. Real şəraitə uyğun olaraq çıxarılmış dini qərar mənasına gələn fitvanın şəraitin dəyişilməsindən sonra öz qüvvəsini itirməsi fiqh ənənəsində qəbul edilmiş məsələdir. Düşünürük ki, yuxarıdakı iddia əvəzinə "Fiqhin əksər məsələləri müəyyən dövrün mənzərəsini özündə əks etdirdiyindən – bunu, dediyimiz kimi fitva elmi, fiqh tələb edir – subyektivlik ifadə edir" deyilsəydi, bu, fiqhi irsimizə daha möhtərəm yanaşma olardı – ***tərcüməçinin qeydi.***

[1] Məhəmməd ət-Tahir ibn Aşur. İslam şəriətinin məqsədləri // araşdıran: Məhəmməd Tahir Misavi. İordaniya: "Dar ən-nəfais" nəşriyyatı, 2001, səh. 165-166.

[2] "Bu məsələni bir problem kimi qarşıya qoymaq qəlblərdə o duyğunu oyatmaq məqsədi güdür ki, din elmlərinin çoxu, o cümlədən fiqhin əsasları (fiqh üsulu) əvvəlki ruhunu qoruyub saxlaya bilməyib. Həmin ruhu yenidən bərpa etmək elmi-dini intibahın zəruri şərtlərindəndir". Bax: Əbülfəzl Abdussalam ibn Məhəmməd ibn Əbdülkərim // "Fiqh üsulları elmində novatorluq və novatorlar" kitabı. Qahirə: "əl-Məktəbə əl-islamiyyə" nəşriyyatı, səh. 576-577.

masına imkan verəcəkdir. Ağıl və iman (vəhy) arasında inteqrasiya və uyğunluq yaratmaq üçün islam ölkələrinin xüsusi təhsil sisteminə ehtiyacı vardır. Bu təhsil sistemi əsas diqqətini həm dini və dünyəvi elmlərin tədrisinə, həm də tələbələrdə düşünmə, mühakimə, təhlil və “məqasid” təlimi əsasında dini mətnlərin təfsiri bacarıqlarının inkişaf etdirilməsinə yönəltməlidir. Müasir problemlərin həllində islamın harmonikliyini mühafizə etmək vəzifəsi də bu təhsil sisteminin prioritetlərindən olmalıdır.

**Cədvəl 4**


Ağılın qorunması
Maliyyə dəstəyi
Yaradıcılığa görə mükafatlandırma
Sərbəst düşüncə və söz azadlığı
Kitabxana və araşdırma xidmətləri
Dini mətnləri izahda "məqasid" təliminin əsas götürülməsi
Yüksək səviyyəli dini və dünyəvi təhsil (münasib təhsil haqqı)
Bilik və texniki bazanın genişləndirilməsi
Canı, ağılı, nəsil və var-dövləti qoruma
İctimai, iqtisadi və siyasi inkişaf
Bəşəriyyətin xoşbəxtliyi

# YÜKSƏK SƏVİYYƏLİ DİNİ VƏ DÜNYƏVİ TƏHSİL

Tərbiyəyə, sosial və iqtisadi inkişafa əhəmiyyətin verildiyi islam dinində təhsilin xüsusi yeri vardır. Təəccüblü deyildir ki, Quranın Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* endirilmiş ilk ayəsində deyilir:

"(Ya Peyğəmbər! Qurani-Kərimi bütün məxluqatı) yoxdan yaradan rəbbinin adı ilə (bismillah deyərək) oxu!

O, insanı laxtalanmış qandan yaratdı.

(Ya Peyğəmbər!) Oxu! Sənin rəbbin ən böyük kərəm sahibidir!

O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi.

(O Rəbbin ki) insana bilmədiklərini öyrətdi" (əl-Ələq, 1-5).

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* savadlanmağa xüsusi əhəmiyyət verirdi. O, elm öyrənməyi qadınlı-kişili hər kəsə vacib bilmiş, alimin məqamını abidinkindən uca tutmuşdu[1]. Bu

---

[1] Ənəs ibn Malik *(Allah ondan razı qalsın!)* rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib: "Elm öyrənmək hər bir müsəlmana vacibdir". Bax: İbn Macə. Sünən. Qahirə: "İsa əl-babi əl-hələbi" mətbəəsi, 1952, I cild, səh. 81, hədis № 244.

Əbu Dərdanın *(Allah ondan razı qalsın!)* rəvayət etdiyi başqa bir hədisdə oxuyuruq: "Alimin abiddən üstünlüyü Ayın digər ulduzlardan üstünlüyü kimidir". Bax: İbn Macə. Sünən. Qahirə: "İsa əl-babi əl-hələbi" mətbəəsi, 1952, I cild, səh. 81, hədis № 223. **Qeyd**: islamda alim Allaha ibadət edən, Ona bağlı qalan, tədqiqatlarını Onun razılığını qazanmaq üçün aparan şəxsdir. Bu mənada, təbii ki, alim yalnız ibadətlə məşğul abiddən üstün sayılacaqdır.

səbəbdən dini və dünyəvi təhsil formalarını vəhdətdə götürmək müəyyən şəxslər üçün sağlam baza formalaşdıracaqdır. Bu da imkan verəcəkdir ki, onlar yaşadıqları cəmiyyətin dəyərlərini öyrənsinlər, halal yolla yaşamaq, elm və texnologiyanın inkişafında iştirak etmək üçün bacarıq və imkanlarını genişləndirsinlər.

Fiqhə dair ədəbiyyatda Quran və Pak Sünnənin elmə qayğısından danışılır. Məsələn, XX əsrin görkəmli fəqihlərindən Məhəmməd əbu Zəhrə yazırdı: "Cəmiyyətə ziyan deyil, fayda gətirsin deyə insana təhsil vermək lazımdır"[1].

Amma ibadətdən uzaq kəslərin elmlə məşğul olduqlarını bəhanə gətirərək ibadətdən boyun qaçırmaları islamda məqbul davranış deyildir. Hədislərdə alim dedikdə bu cür kəslər nəzərdə tutulmur – ***tərcüməçinin qeydi.***

[1] Məhəmməd əbu Zəhrə. Fiqh üsulları, 1957, səh. 350.

# DİGƏR TƏLƏBATLAR

Əgər müsəlman cəmiyyətində əxlaqi və maddi-texniki inkişafın sürətlənməsini istəyiriksə, yüksək səviyyəli təhsil və tədqiqat sistemi yaratmalıyıq. Kitabxana və araşdırma xidmətləri yoxdursa, düşünmə və söz azadlığı təmin edilməyibsə, yaradıcı fəaliyyət üçün mükafat və patentlər ayrılmırsa, münasibətlərdə yaltaqlıq, "tapşırmaq" fəlsəfəsi hökm sürürsə, insanlar layiq olduqları vəzifələrdən uzaq saxlanılırsa, sözügedən inkişaf xəyal olaraq qalacaqdır.

Bəzən maddi imkansızlıq bacarıqlı insanların yüksək səviyyədə təhsil almalarına mane olur. Əgər biz təhsili, araşdırmaları, texnoloji tərəqqini inkişafın zəruri şərtlərindən sayırıqsa, onda korrupsiyaya son qoymalı, hər bir sahəni lazımi vəsaitlərlə təmin etməliyik (bax: cədvəl 4).

# SONRAKI NƏSİLLƏR ÜÇÜN BÜTÜN İMKANLARIN TƏMİNİ
## (CƏDVƏL 5)

## ƏXLAQİ İNKİŞAF

Əvvəlki nəsillərlə müqayisədə sonrakı nəsillərin əxlaqi, maddi və intellekt cəhətdən daha az inkişaf etdiyi sivilizasiyaların ömrü uzun olmur. Belə sivilizasiyalar üz-üzə gəldikləri təhlükələrə müqavimət göstərə bilməyib süquta uğrayırlar. Deməli, bir-birini əvəz edən nəsillərin vəziyyətində davamlı yaxşılaşma olmalıdır ki, bu da bir neçə amillə şərtləşir. Bunlardan biri uşaqların necə böyüyüb boya-başa çatmasıdır. Uşaqların üstün keyfiyyətlərə sahib müsəlman kimi yetişməsi üçün onlara gözəl əxlaqın bütün tərəflərini aşılamalıyıq. Bu üzdən onlar hələ uşaqlıqdan sədaqəti, düzgünlüyü, səmimiyyəti, səbri, nizam-intizamı, işdə ciddiliyi, tədbirliliyi, ədəb-ərkanı, valideyn və müəllimlərə ehtiram göstərməyi, başqa insanlar, xüsusən də işçilər, yoxsul və imkansızlar qarşısındakı öhdəliklərə riayət etməyi, başqaları ilə sivil münasibət qurmağı öyrənməlidirlər.


Əxlaq və intellekt cəhətdən forma-laşma və inkişaf
Nikah, ailədaxili həmrəylik
Ehtiyacların təmini
Ekoloji təmiz mühit
Qorxusuz, münaqi-şələrdən uzaq və təhlükəsiz mühit, borc yükündən xi-las olmaq
Nəslin qorunması
Canı, dini, ağıl və var-dövləti qoruma
Davamlı bəşəri inkişaf

**Cədvəl 5**

# DÜZGÜN TƏRBİYƏ VƏ SAĞLAM AİLƏ MÜHİTİ

Ailə uşaqların əxlaqi cəhətdən formalaşmasında ilk məktəb rolunu oynayır. Əgər ailədə uşağa islamın bütün müsəlmanlarda görmək istədiyi gözəl əxlaqi keyfiyyətlər aşılanmazsa, bunun gələcəkdə doğuracağı çətinliklərin öhdəsindən gəlmək çətinləşir.

Əgər valideynlər islamın ruhunu əks etdirən keyfiyyətlərə sahib deyillərsə, ailə sözügedən ağır məsuliyyətin öhdəsindən gələ bilmir. Belə olduqda valideynlər uşaqlarına nümunə ola bilmirlər. Bu cür valideynlər övladlarını gələcəkdə uğur qazanacaq üstün keyfiyyətlərə sahib fərdlər kimi yetişdirməkdən məhrumdurlar.

Habelə, ailədə sevgi, şəfqət, mənəvi rahatlıq hökm sürməlidir ki, tərbiyə işi uğurla davam etsin. Allah Təala buyurur:

"Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!" (ər-Rum, 21).

Belə abı-havanın yaranması o halda mümkündür ki, valideynlərin hər bir digəri qarşısında götürdüyü öhdəliklərə sevgi və ixlasla əməl etsin. Ər-arvad arasındakı davamlı çəkişmələr, ailədaxili münaqişələr uşaqlar üçün ən pis nümunədir. Ailədaxili çə-

kişmələr və bunun təbii nəticəsi hesab olunan boşanma halları uşaqların əxlaqi, əqli və psixoloji inkişafına ciddi təsir göstərir[1].

İslamda boşanma halal davranış hesab olunsa da, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

"Allahın heç xoşuna getməyən halal – talaqdır (boşanmadır)"[2].

Başqa bir hədisdə deyilir:

"Evlənin, amma boşamayın. Çünki boşama Ərşi titrədər"[3].

Elə isə uşaqların xoşbəxtliyi naminə ailədaxili münaqişələrdən, talaqdan mümkün qədər çəkinmək lazımdır. Yox, əgər boşanma qaçılmazdırsa, onda uşaqları onun dağıdıcı təsirindən qorumaq üçün bütün imkanlar səfərbər edilməlidir.

---

[1] Araşdırmalar göstərmişdir ki, dini öhdəliklərin ciddi surətdə gözlənildiyi ailələrdə böyüyən uşaqlar az hallarda cinayət tipli hərəkətlərə (narkomaniya, alkoqolizm, nikahdankənar cinsi əlaqə və s.) yol verirlər. Bax: Laurence Iannacconne. Introduction to the Economics of Religion, Journal of Economic Literature, September, 1998, p. 1476; Jerald Bachman. The Decline in Substance Use in Young Adulthood: Changes in Social Activities, Roles and Beliefs (Mahway, NS: Lawrence Erlbaum Associates, 2002; John Wallace and David Williams. Religion and Adolescent, Health-Compromising Behavior, in J.L. Schulenburg, J.L. Maggs and K. Hurrelmar, eds., Health Risk and Developmental Transitions During Adolescence (Cambridge, UK: Cambridge University Press, 1997), pp. 444-468; Jonathan Gruber. Religious Market Structure, Religious Participation and Outcomes: Is Religion Good for You? NBER Working Paper 11377, 2005, May (Cambridge, MA: National Bureau of Economic Research); Fukuyama, 1997.

[2] Hədisi Abdullah ibn Ömər *(Allah ondan razı qalsın!)* rəvayət etmişdir. Bax: Əbu Abdullah Məhəmməd ibn Əhməd əl-Ənsari əl-Qürtubi. əl-Came li-əhkam əl-Quran. Beyrut: "Dar əl-kitab əl-ərəbi" nəşriyyatı, 1952, XVIII cild, səh. 149, "Talaq" surəsinin 1-ci ayəsinin təfsiri.

[3] Hədisi Əli ibn əbu Talib *(Allah ondan razı qalsın!)* rəvayət etmişdir. Bax: Əbu Abdullah Məhəmməd ibn Əhməd əl-Ənsari əl-Qürtubi. əl-Came li-əhkam əl-Quran, Beyrut: "Dar əl-kitab əl-ərəbi" nəşriyyatı, 1952, XVIII cild, səh. 149, "Talaq" surəsinin 1-ci ayəsinin təfsiri.

# İNTELLEKTUAL İNKİŞAF

Parlaq nəsillər yetişdirmədə sağlam ailə mühiti və düzgün tərbiyə ilə yanaşı, başqa bir amil də mühüm rol oynayır. Bu, uşaqlara lazımi təhsilin verilməsidir. Yüksək təhsil onlara xüsusi bacarıqlar qazandıracaqdır ki, nəticədə, onlar öz problemləri ilə məşğul olacaq, cəmiyyətin əxlaqi, sosial-iqtisadi və intellektual inkişafında fəal tərəfdaş kimi çıxış edəcəklər. Odur ki yüksək səviyyədə təhsil verən məktəblərə, kollec və universitetlərə ehtiyac vardır. Bəlkə də, keçən bir neçə əsr ərzində müsəlmanların müvəffəq ola bilmədikləri sahə elə budur. Halbuki tarixin müəyyən dövrlərində İslam dünyası təhsil sahəsində parlaq uğurlara imza atmışdır. Deməli, təhsil lazımi səviyyəyə çatmadıqca, bu işə mümkün resurslar cəlb edilmədikcə islam dövlətlərində sürətli inkişaf baş verməyəcəkdir. Divarlara yazılacaq söz bu olmalıdır: Təhsil, təhsil, yenə də təhsil!

Təhsil pulsuz olmalıdır ki, cəmiyyətdəki bütün fərdlər bu imkandan istifadə edə bilsinlər. Əgər bu mümkün deyildirsə, onda münasib təhsil haqqı müəyyən edilməlidir. Çünki təhsil haqqı yüksək olarsa, yalnız varlılar öz övladlarına keyfiyyətli təhsil verə biləcəklər ki, bu da cəmiyyətdə sinfi bərabərsizliyi dərinləşdirəcəkdir. Sinfi bərabərsizliyin hakim olduğu, gəlirlərin ədalətsiz bölüşdürüldüyü cəmiyyətlərdə gərginlik artar, ictimai hərc-mərclik çoxalar.

Vəsait və resursların azlığını bəhanə gətirmək zəif tor arxasında gizlənməyə oxşayır. Çünki təhsilin inkişafdakı mühüm rolu tələb edir ki, ona hər şeydə birincilik verək. Yeri gələrsə, bu sahəyə digər sektorlardan vəsait cəlb edilməlidir.

# TƏLƏBATLARIN TƏMİNİ VƏ TƏMİZ EKOLOJİ MÜHİT

Sağlam nəsillər üçün iki mühüm amilə diqqət yetirmək lazımdır. Bunlardan birincisi onların bütün tələbatlarını, ehtiyaclarını təmin etməkdir. İkincisi isə budur ki, fiziki və əqli cəhətdən sağlam olub, cəmiyyətin inkişafında öz vəzifələrinin öhdəsindən fəal surətdə gəlsinlər deyə onlar üçün sağlam ekoloji mühit yaradılmalıdır. Hədislərin birində deyilir: "Güclü mömin zəif mömindən Allahın nəzərində daha xeyirli və sevimlidir"[1]

Əgər uşaqlar sağlam ekoloji mühitlə, təmiz qida və lazımi tibbi xidmətlə təmin edilməzlərsə, gənclik illərində sağlam və güclü olmazlar. Bu isə o deməkdir ki, gözəl əxlaqı və savadları olsa da, belə gənclər cəmiyyətin inkişafında fəal iştirak imkanından məhrumdurlar.

---

[1] İbn Macə. Sünən. Qahirə: "İsa əl-babi əl-hələbi" mətbəəsi, 1952, I cild, səh. 31:79.

# MÜNAQİŞƏLƏRDƏN UZAQ, TƏHLÜKƏSİZ MÜHİT VƏ BORC YÜKÜNDƏN XİLAS OLMAQ

Gələcək nəsillərin xoşbəxtliyi üçün münaqişələrdən uzaq, təhlükəsiz mühit formalaşdırmaq, istehlak məqsədilə indiki nəsillərin götürdüyü kreditlərdən irəli gələn borc yükündən xilas olmaq çox zəruridir.

Tolerantlıq və birgə dinc yaşama siyasətini yürütməklə qorxudan, münaqişə və təhlükələrdən sığorta olunmaq mümkündür. Həmçinin, fərdlər arasında lazımi ünsiyyətin baş tutması üçün müvafiq abı-hava formalaşdırmaq tələb olunur. Bu məqsədlə lazımi vəsait ayrılmalı, gərginlik yaradan bütün növ qızışdırıcı hallara son qoyulmalıdır.

Borc yükündən xilas olmağa gəlincə, bu iki yolla mümkündür. Birincisi, imkanları nəzərə almayan həyat tərzi fəlsəfəsi ilə mübarizə aparmaq lazımdır. Odur ki indiki nəsillər öz həyat tərzini dəyişməlidirlər. Belə olan təqdirdə nəinki xüsusi sektora aid borclar azalacaq, habelə əlavə imkanlar yaranacaq, gənclər üçün yeni-yeni iş yerləri açılacaqdır.

İkinci yol isə budur ki, borc yükünə səbəb olan şəxsi büdcə kəsirləri baş verməsin deyə dövlət xüsusi tarazlaşdırma siyasəti aparmalıdır. Bu da öz növbəsində, qarşıya qoyulmuş məqsədlərə çatmağa zəmanət verəcək lazımi vəsaitin yaranmasını təmin edəcəkdir.

# VAR-DÖVLƏTİN ARTIRILMASI VƏ YA KAPİTALIN İNKİŞAFI (CƏDVƏL 6)

İmam Qəzali və Şatibinin "məqasid" sadalamasında var-dövlət axırıncı pillədə qərarlaşıb. Amma bu o demək deyildir ki, var-dövlət az əhəmiyyətlidir. Bəlkə də, var-dövlət digər dörd "məqsəd" qədər mühümdür. Var-dövlət olmadıqda bəzən həmin dörd "məqsəd" ümumun rifahını təmin edə bilmir. O da məlumdur ki, asketizm, "öz"dən imtina Quran və Sünnə tərəfindən rədd edilib. Quranda deyilir:

"...Onlar özlərindən rahiblik (tərki-dünyalıq) icad etdilər. Biz onu (rahibliyi) onlara vacib buyurmamışdıq..." (əl-Hədid, 27).

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)*, bəlkə də, elə bu səbəbdən deyibmiş:

"Allahdan qorxanın dövlətli olmağı qəbahət deyildir"[1].

Başqa bir hədisdə deyilir:

"Var-dövlətini müdafiə edərkən öldürülən kəs şəhid sayılır"[2].

---

[1] Məhəmməd ibn İsmayıl Buxari. əl-Ədəb əl-müfrəd. Qahirə: "Qüseyy Mühibbəddin əl-Xətib" mətbəəsi, hicri 1379, səh. 113, 301.

[2] Məhəmməd ibn İsmayıl əl-Buxari. əl-Came əs-səhih. Qahirə: "Məhəmməd Əli Səbih" mətbəəsi, tarixsiz, "Zülmlər" fəsli, "Var-dövləti üçün vuruşub öldürülən şəxs şəhid sayılır" bölümü; Müslim. Səhihi-Müslim // tədqiq edib çapa hazırlayan: Məhəmməd Fuad Əbdülbaqi. Qahirə: "İsa əl-babi əl-hələbi" mətbəəsi, 1955, "İman" fəsli.

Görkəmli fəqih, böyük müfəssir Fəxrəddin Razi (vəfat edib – hicri 606 / miladi 1209) beş "məqsəd" cədvəlində "var-dövlət"i, ola bilsin ki, buna görə "can"dan sonraya yerləşdiribmiş[1].

Hər bir halda, var-dövlət Pak və Uca Allahın əmanətidir; yoxsulluğu aradan qaldırmaq, ümumun tələbatlarını ödəmək, hər kəsin həyatını mümkün qədər yaxşılaşdırmaq, gəlir və sərvətin ədalətli bölgüsünü aparmaq üçün onu əmanətə uyğun olaraq çoxaltmaq, istifadə etmək, səmimi-qəlbdən bölüşdürmək tələb olunur. "Məqsədlər"i əsaslı şəkildə həyata keçirmək üçün maddi imkana sahib olmaq lazımdır. Dəyərləri və təşviq mexanizmi ilə dinin başlıca rol oynadığı sahə də məhz budur. Dini dəyərlər olmazsa, var-dövlət və pul toplamaq özü-özlüyündə məqsədə çevrilir ki, bu da vicdanın itirilməsinə, ədalətsizliyin vüsətinə, qüsurlara, haqqın tapdalanmasına səbəb olur. Nəticədə, indiki və gələcək nəsillərin böyük əksəriyyətinin rifah səviyyəsi aşağı düşür. Bu səbəbdən Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyibmiş:

"Dinarın qulu bədbəxtdir! Dirhəmin qulu bədbəxtdir! Məxmərin qulu bədbəxtdir! Çünki belələrinə (bir şey) verildikdə, razı qalar, verilmədikdə narazılıqlarını bildirərlər"[2].

Deməli, din və var-dövlət insanın xoşbəxt olmağı üçün çox mühümdür; onlardan hər hansı birinə etinasız yanaşmaq olmaz. İnsanlar Allah qarşısında, özləri və başqaları qarşında götürdükləri öhdəlikləri həyata keçirmək üçün lazımi var-dövlət və vəsaitə möhtacdırlar. Bu məqamda din də lazımdır. Çünki din var-dövləti qazanmaq və xərcləməyə ülvi məqsədlər qazandırır[3].

---

[1] Fəxrəddin Razi. əl-Məhsul fi elm üsul əl-fiqh / araşdırıb çapa hazırlayan: Taha Cabir əl-Ülvani. Beyrut: "ər-Risalə" nəşriyyatı, 1997, V cild, səh. 160.

[2] Buxari. "əl-Came əs-səhih" kitabı, "Cihad və yürüşlər" fəsli.

[3] Bu üzdən Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib: "Qul Qiyamət

Var-dövlət həm də ona görə lazımdır ki, bərabərsizliyə son qoyulsun, gəlirlər düzgün bölüşdürülsün. Bu məqsədlə, zəkat, sədəqə və vəqflərlə təmsil olunmuş yenidənbölüşdürmə yollarını əsas götürmək doğru deyildir. Bu üsulların hər biri zəruri sayılsa da, əsas diqqət iqtisadi inkişaf yolu ilə milli "biskvit"in böyüdülməsinə yönəldilməlidir. Çünki əsas ağırlığı vergilər yolu ilə varlılara yükləmək əvvəl-axır onların etirazına səbəb olacaqdır. Quranda bu reallıq belə ifadə olunub:

"Əgər Allah sizdən Onun (mal-dövlətinizin) hamısını istəsə və bunu sizdən israrla tələb etsə, siz xəsislik göstərərsiniz və O da (sizin islam dininə olan) kin-küdurətinizi (yaxud malınızı xərcləmək istəməməyinizi) zahirə çıxardar" (Muhəmməd, 37).

C. Krosland sosialist təcrübəsi əsasında haqlı olaraq bildirirdi ki, "İstənilən növ düzgün sərvət konversiyası əhalinin dövlətli hissəsinin həqiqi gəlirlərində nəinki nisbi, həm də mütləq formada azalmalara səbəb olacaqdır"[1].

Bəlkə də, ədalətli bölüşdürmədə ifrata vardığı üçün islam dövlətlərinin təcrübəsi bundan çox fərqli deyildir. Deməli, müsəlmanlar yoxsulluq səviyyəsinin aşağı salınması və ictimai əyriliklərlə mübarizədə iqtisadi inkişafa lazımi diqqət yetirməlidirlər. Bunun üçün, bir tərəfdən, təhsildə mədəni dəyişikliklər, texniki tərəqqi, vicdanlı və ciddi əmək, iltizam, səmərəlilik, araşdırma, nizam-intizam, komanda işi, uzaqgörənlik və sair, digər tərəfdən də insan resursları tələb olunur. İslama görə, bütün bu

---

günü dörd şey barəsində sorğu-sual edilmədikcə yerindən tərpənməyəcəkdir: a) ömrünü nəyə həsr edib; b) cavanlığını necə keçirib; c) var-dövlətini haradan qazanıb, haraya xərcləyib; ç) biliyini nəyə sərf edib". Hədisi Əbu Yusif "Xərac" kitabında rəvayət edib. Bax: Yaqub ibn İbrahim Əbu Yusif. Kitab əl-xərac. Qahirə: "əs-Sələfiyyə" mətbəəsi, hicri 1352, səh. 4.

[1] C.A.R. Crosland. Socialism Now (London: Jonathan Cape), 1974.

sadalananlar müsəlman şəxsiyyətin fərdi və sosial həyatında əhəmiyyətli rol oynayır. Onu da deyək ki, bu sadalananlara nə məktəb proqramlarında, nə də ki məscid xütbələrində lazımi əhəmiyyət verilir. İnsan resurslarını inkişaf etdirməklə yanaşı, o da zəruridir ki, inkişafı sürətləndirmək üçün valyuta, maliyyə və ticarət siyasəti islam təlimləri əsasında nəzərdən keçirilsin. Şəriətə zidd olmayan vasitələrlə yüksək inkişaf göstəriciləri əldə etmiş digər dövlətlərin təcrübəsindən istifadə mümkündür və bunun üçün həngamə qoparmaq lazım deyildir.

**Cədvəl 6**


Var-dövlətin artırılması
Təhsil, araşdırma, texniki-inzibati inkişaf
İnsan həyatının, var-dövləti və ləyaqətinin qorunması
Düzgün idarəetmə
Sərbəst fəaliyyət
İş imkanları, azad iş
Yoxsulluğun ləğvi, ehtiyacların təmini, ədalətli bölgü
İctimai həmrəylik və qarşılıqlı inam
İmkanlar və istifadə (istehlak)
Lazımi inkişaf səviyyəsi
Dinin, canın, ağıl və nəslin qorunması
Xoşbəxtlik

Ədalətli inkişaf üçün mikro-qurumlara (təşəbbüslərə – Micro-enterprises) dəstək vermək lazımdır. Bu da öz növbəsində iş yerlərinin çoxalmasına, yoxsulların işə təmin olunmasına gətirib çıxaracaqdır. Bunun üçün peşə təcrübəsinin artırılması, mikro-maliyyələşdirmə, infrastrukturlarda təcili ehtiyacların ödənilməsi, kəndlər və şəhərlərin yoxsul hissələrinin bazara açılması tələb olunur. Təcrübə göstərir ki, bank faizlərinə əsaslanan mikro-kreditlər (maliyyələşdirmə) son dərəcə yoxsul təbəqələrin vəziyyətini istənilən şəkildə yaxşılaşdırmır. Çünki ortaq faktiki faiz göstəriciləri 30-45-ə çatır. Nəticədə, borc alanlar ciddi problemlərlə qarşılaşır, bitib-tükənməyən borc əməliyyatlarına cəlb olunurlar[1].

Kapitala sahib olmaq sərvəti toplamağın mühüm şərtlərindən birini əmələ gətirir. Belə çıxır ki, yoxsullar yoxsul olaraq qalacaqlar; əgər pulları yoxdursa, lazımi bacarıqları olsa da, vəziyyət dəyişməyəcəkdir. Elə isə faizə yox deyən humanist dəyərlərə uyğun olaraq, son dərəcə yoxsulluqdan əziyyət çəkən şəxslərə mikro-kreditlər verilməlidir. Bunun üçün mikro-maliyyələşdirməni zəkat və vəqflə vəhdətdə götürmək tələb olunur[2].

İmkanı olanlara gəlincə, islam maliyyələşdirməsi (gəlir və zərərdə ortaqlıq), satma və icarə formalarının geniş yayılmasına kömək edə bilərlər.

---

[1] Ahmad Qazi Kholiquzzaman. Socio-Economic and Indebtedness-Related Impact of Micro-Credit in Bangladesh (Dhaka: The University Press), 2007, pp. xvii – xix and 32.

[2] Bax: İslam Araşdırmaları və Treninq İnstitutunun hesabatı, 2007.

# XÜLASƏ

İslam həqiqi xoşbəxtliyin bütün tərəflərini açıb göstərmişdir. Canı, dini, ağılı, nəsli, var-dövləti qorumaq xoşbəxtliyin əsas şərtidir. Var-dövlət insan səadətinin yeganə şərti deyildir. Təbii ki, sözügedən məsələlər kompleks götürülməlidir. Canı, dini, ağılı, nəsil və var-dövləti qorumaqla inkişaf etmək imkan verəcəkdir ki, islam "ulduz"u bütün parlaqlığı ilə işıq saçsın, bəşəriyyəti xoşbəxt etmədə pat sahibi olsun (bax: 96-cı səh.). Aşağıdakı ayədə ifadə olunmuş ideya məhz bu halda İslam dünyasında öz inikasını tapacaqdır:

"(Ya rəsulum!) Beləliklə, Biz səni aləmlərə ancaq bir rəhmət olaraq göndərdik" (əl-Ənbiya, 107).

İslam dünyagörüşünün həyata keçməsi üçün digər ehtiyacları nəzərə almadan yalnız iqtisadi inkişafa diqqət yetirmək Müsəlman dünyasında, bəlkə də, qısa vədəliyinə tərəqqi doğuracaqdır. Amma bərabərsizlik, ailələrin dağılması, hadisələrin məcrasından çıxması, cinayətlər, sosial hərc-mərcliklər səbəbindən inkişafın uzun müddət davam etməsi mümkün deyildir. O da istisna edilmir ki, belə bir tənəzzül müəyyən vaxtdan sonra tədricən, özü də "dairəvi səbəbiyyət" mexanizminə uyğun olaraq, siyasətin, cəmiyyət və iqtisadiyyatın bütün sahələrini bürüsün. İbn Xəldun "Müqəddimə" kitabında bu mexanizm haqda söz

açmışdır[1]. Dairəvi səbəbiyyət son əsrlərdə onsuz da inkişafdan qalmış İslam mədəniyyətinin daha da tənəzzülə uğramasına gətirib çıxara bilər.




Dinin məqsədləri və bəşəriyyətin xoşbəxtliyi

[1] İbn Xəldunun əlaqədar görüşləri haqda bax: Chapra M. Umar. The Future of Economics: An Islamic perspective, Leicester, UK: The Islamic Foundation, 2000, pp. 202-206.

# MÜNDƏRİCAT

Tərcüməçinin ön sözü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .3
Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .6
Şəriətin məqsədləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 12
Canın qorunması . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 18
Ləyaqət, insana ehtiram, bəşəri qardaşlıq
və sosial bərabərlik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 19
Ədalət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 27
Mənəvi-əxlaqi yüksəliş . . . . . . . . . . . . . . . . . . . . . . . . 32
Canın, var-dövlət və şərəfin qorunması . . . . . . . . . . . . . . 33
Azadlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35
Təhsil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 38
Düzgün idarəetmə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 39
Yoxsulluğun ləğvi və başlıca tələbatların təmini . . . . . . . . . . 40
İş imkanları və işləmək . . . . . . . . . . . . . . . . . . . . . . . . 45
Gəlirlər və resursların ədalətli bölgüsü . . . . . . . . . . . . . . . 48
Evlənmək və stabil ailə həyatı . . . . . . . . . . . . . . . . . . . . 49
Ailə və sosial həmrəylik . . . . . . . . . . . . . . . . . . . . . . . . 51
Cinayətlərin məhdudlaşdırılması . . . . . . . . . . . . . . . . . . . 54
Sağlam düşünməyi təmin edən müvafiq şəraitin
yaradılması və xoşbəxtlik . . . . . . . . . . . . . . . . . . . . . . . 55
Dinin, zəkanın, nəsil və mülkiyyətin qorunması . . . . . . . . . . 56
İmanın möhkəmləndirilməsi (cədvəl 3) . . . . . . . . . . . . . . . 57
Dini dünyagörüşü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 57
Dəyərlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 60
Münasib təşviq mexanizmi . . . . . . . . . . . . . . . . . . . . . . . 62

Təhsil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 64
Xeyirxahlıq, ailədaxili və sosial həmrəylik. . . . . . . . . . . . . . 65
Dövlət hakimiyyəti. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 68
İntellektin inkişaf etdirilməsi (cədvəl 4) . . . . . . . . . . . . . . . 71
Dini mətnlərin "məqasid" təlimi əsasında izah edilməsi . . . . . 74
Yüksək səviyyəli dini və dünyəvi təhsil. . . . . . . . . . . . . . . . 78
Digər tələbatlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 80
Sonrakı nəsillər üçün bütün imkanların təmini (cədvəl 5). . . . 81
Əxlaqi inkişaf . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 81
Düzgün tərbiyə və sağlam ailə mühiti . . . . . . . . . . . . . . . 83
İntellektual inkişaf . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 85
Tələbatların təmini və təmiz ekoloji mühit . . . . . . . . . . . . . 87
Münaqişələrdən uzaq, təhlükəsiz mühit və borc yükündən
xilas olmaq. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 88
Var-dövlətin artırılması və ya kapitalın inkişafı (cədvəl 6) . . . . 89
Xülasə. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 95

*QEYDLƏR:*

Məhəmməd Ömər Şabra

# İNKİŞAFIN İSLAM MODELİ

"məqasid" konsepsiyası əsasında

**Bədii və texniki tərtibat:**
Həsən Həsənov

"İdrak" İctimai Birliyi
AZ1100, Bakı ş., Bakı Universiteti MTK,
M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

Yığılmağa verilib: 08.04.13. Çapa imzalanıb: 06.02.13
Çap vərəqi: 6,25. Sifariş №: . Tiraj: 1000 nüsxə.

CBS POLYGRAPHIC PRODUCTION

mətbəəsində çap olunub



Məhəmməd Ömər Şabra (1933)

*İslam iqtisadiyyatı mütəxəssisidir*

1933-cü ildə Pakistanda anadan olmuşdur.
1954-cü ildə Karaçi Universitetində (Pakistan) bakalavr təhsili almışdır.
1956-cı ildə həmin universitetin magistr pilləsində təhsilini başa vuran Şabra 1961-ci ildə ABŞ-ın Minnesota Universitetində iqtisadiyyat ixtisasında doktorluq dissertasiyasını müdafiə etmişdir.
Səudiyyə Ərəbistanı vətəndaşı olan Şabra akademik həyatının 2 ilini Pakistanda, 6 ilini ABŞ-da, 38 ilini isə Səudiyyə Ərəbistanında keçirmişdir.
1999-cu ildən etibarən İslam İnkişafı Bankının nəzdindəki İslam Təlim-Tədqiqat İnstitutunda məsləhətçi işləyir.
İslam iqtisadiyyatı mövzusunda 15 kitab, 95 məqalə yazmışdır. Əsərləri ərəb, fransız, alman, yapon, fars, ispan, türk, urdu və malay dillərinə tərcümə edilmişdir.

*Bəzi əsərləri:*

Ədalətli valyuta sisteminə doğru (1985)
İslam və iqtisadi təhlükələr (1992)
İslama görə iqtisadiyyatın gələcəyi (2000)
İslam mədəniyyəti: tənəzzülü səbəbləri və islahatçılıq zərurəti (2008)

İDRAK